# QARABAĞ AZƏRBAYCANDIR!


RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 226 (8542) ŞƏNBƏ, 31 oktyabr 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az




# Azərbaycan Ordusu tarixi və müqəddəs missiyasını şərəflə yerinə yetirir

## Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə son qarış torpağımız azad edilənə qədər zəfər yürüşü davam edəcək

**Dövlət müstəqilliyinin bərpasından sonra Azərbaycanın tarixində çox əlamətdar hadisə baş verib. Bunlardan ən möhtəşəmi isə bu günlərdə yaşanmaqdadır. Sentyabrın 27-dən başlanan ikinci Qarabağ müharibəsində Azərbaycan Ordusu işğal olunmuş rayonlarımızı bir-birinin ardınca azad etməklə, müstəqillik tariximizin ən şərəfli səhifəsini yazır.**

### Ermənistan heç vaxt Azərbaycanla müharibə aparmaq gücündə olmayıb

1994-cü ildə imzalanmış atəşkəs müqaviləsindən sonra Ermənistan özünü daim qalib kimi aparıb, danışıqlar prosesində kifayət qədər aqressiv və destruktiv mövqedən çıxış edib. Hərçənd bütün dünyaya məlumdur ki, Ermənistan o zaman işğalı öz potensialı hesabına reallaşdıra bilməzdi. Bu günlərdə Qarabağdakı müharibənin gedişi bir daha təsdiqlədi ki, Ermənistan Azərbaycanla savaşmaq qabiliyyətində deyil. Ən əsası Azərbaycan bütün dünyaya nümayiş etdirdi ki, 1990-cı illərin əvvəllərində, sadəcə, döyüşü uduzmuşdu. "Biz müharibədə məğlub olmamışdıq. Biz döyüşü uduzmuşduq. Bu da obyektiv səbəblər üzündən olmuşdur" bunu Prezident İlham Əliyev Amerika Birləşmiş Ştatlarının "Fox News" televiziya kanalına müsahibəsində bildirmişdi.

Bu gün vəziyyət tamamilə başqadır. Öz inkişaf yolunu düzgün müəyyən edən Azərbaycan hazırda Cənubi Qafqazın lider dövlətidir. Eyni zamanda bir çox məsələlərlə bağlı Bakının yürütdüyü uğurlu siyasət, enerji təhlükəsizliyinə, qlobal nəqliyyat şəbəkəsinin inkişafına və beynəlxalq terrorizmlə mübarizəyə verdiyi töhfələr onu beynəlxalq miqyasda söz sahibinə çevirib. Ən mühümü odur ki, İlham Əliyevin rəhbərliyi ilə keçilən yüksəliş yolu ölkənin iqtisadi və bununla paralel olaraq digər sahələrin dinamik inkişafına təsirsiz ötüşməyib. Xüsusilə Azərbaycan Silahlı Qüvvələrinin modernləşməsi və ən müasir döyüş imkanlarını mənimsəməsi keçdiyimiz inkişaf yolunun əsas nümunələrindən biridir.

Onu da qeyd edək ki, Azərbaycan həmişə ATƏT-in Minsk qrupunun vasitəsilə aparılan danışıqlar prosesinə sadiq olub.

*Ardı 5-ci səh.*

# Azərbaycan qardaş ölkəyə hər cür yardım göstərməyə hazırdır

**Oktyabrın 30-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana telefonla zəng edib.**



Dövlətimizin başçısı Türkiyənin Egey bölgəsində baş vermiş zəlzələ ilə əlaqədar xalqımızın üzüntü hissi keçirdiyini vurğulayıb, bu hadisə ilə bağlı "keçmiş olsun" deyib.

Prezident İlham Əliyev hər zaman olduğu kimi, bu gün də xalqımızın dost və qardaş Türkiyənin yanında olduğunu qeyd edərək bildirib ki, Azərbaycan qardaş ölkəyə hər cür yardım göstərməyə hazırdır.

Prezident Rəcəb Tayyib Ərdoğan telefon zənginə və göstərilən diqqətə görə dövlətimizin başçısına minnətdarlığını bildirib.

*Prezidentin Mətbuat Xidməti*

# Türkiyə Respublikasının Prezidenti zati-aliləri cənab Rəcəb Tayyib Ərdoğana

Hörmətli cənab Prezident,
Əziz Qardaşım.

İzmirdə baş vermiş güclü zəlzələ nəticəsində insan tələfatı və dağıntılar barədə xəbər məni olduqca kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, qardaş Türkiyə xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyir, zəlzələnin nəticələrinin tezliklə aradan qaldırılması üçün hər cür yardım göstərməyə hazır olduğumuzu bildirirəm.

Allah rəhmət eləsin!

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 oktyabr 2020-ci il*

# Xanım Berna Yılmaza

Hörmətli xanım Yılmaz.

Həyat yoldaşınız - qardaş Türkiyə Respublikasının dövlət xadimi və siyasi xadim Məsud Yılmazın vəfatı xəbəri məni olduqca kədərləndirdi.

Bu ağır anlarda dərdinizə şərik çıxır, Sizə, əzizlərinizə və yaxınlarınıza dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin!

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 oktyabr 2020-ci il*

*Birinci vitse-prezident Mehriban ƏLİYEVA:*

# "Türkiyə xalqının kədəri bizim kədərimizdir. Bizim qardaşlığımız əbədi və sarsılmazdır!"

**Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva "Instagram" hesabında Türkiyənin İzmir şəhərində baş verən zəlzələ ilə bağlı paylaşım edib. AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir:**



"Türkiyənin Egey bölgəsində baş vermiş güclü zəlzələ nəticəsində insan tələfatı və dağıntılar barədə xəbərləri kədər və təəssüf hissi ilə qarşıladım. Həlak olanların doğmalarına və yaxınlarına dərin hüznlə başsağlığı verirəm. Yaralıların tezliklə şəfa tapmasını diləyirəm. Türkiyə xalqının kədəri bizim kədərimizdir. Bizim qardaşlığımız əbədi və sarsılmazdır! Uca Tanrı xalqlarımızı bütün bəlalardan və bədbəxtliklərdən qorusun!"

# Prezident İlham ƏLİYEV: "Azərbaycan Ordusu Cəbrayılın, Zəngilanın və Qubadlının 9 kəndini işğaldan azad edib"

**"Müzəffər Azərbaycan Ordusu Cəbrayıl rayonunun Xudaverdili, Qurbantəpə, Şahvələdli, Xubyarlı, Zəngilan rayonunun Aladin, Vejnəli, Qubadlı rayonunun Kavdadıq, Məmər, Mollalı kəndlərini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!"**

**AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev özünün "Twitter" hesabında bildirib.**




# Heç bir təxribat Azərbaycan xalqını zəfər yolundan döndərə bilməz

**Ermənistan bütün dünya ölkələrinin gözləri qarşısında təcavüzkar siyasətini davam etdirir. Bəşəri duyğulardan kənar, insanlıq adına yaraşmayan vəhşiliklər törədir.**

Sentyabrın 27-dən münaqişəni alovlandıran Ermənistanın silahlı qüvvələri beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il tarixli Cenevrə konvensiyaları və onların Əlavə protokollarını, BMT-nin Təhlükəsizlik Şurasının qərar və qətnamələrini, eləcə də elan edilmiş humanitar atəşkəs rejiminin tələblərini kobud şəkildə pozur. Döyüş əməliyyatlarının aparıldığı bölgədən uzaq məsafədə yerləşən şəhər və rayonlarımıza raket və ağır artilleriya zərbələri endirir.

Azərbaycanın dinc əhalisini qəsdən hədəfə alan Ermənistan silahlı qüvvələri bu dəfə yenidən Bərdəni nişan aldı. Oktyabrın 28-i saat 13 radələrində düşmən tərəfindən Bərdə şəhərinin dinc sakinlərin sıx hərəkətdə olduğu və ticarət obyektlərinin kompakt yerləşdiyi əraziyə "Smerç" tipli əməliyyat-taktiki təyinatlı 9M525 qəlpəli böyük dağıdıcı qüvvəyə malik ballistik "claster" tipli 2 ədəd raket zərbələrinin endirilməsi nəticəsində 5-i qadın olmaqla, 21 nəfər həlak oldu, 8-i uşaq, 15-i qadın olmaqla, 70 şəxs isə müxtəlif dərəcəli bədən xəsarətləri aldı.

*Ardı 5-ci səh.*



**Ötən ilin sonundan başlayaraq dünyaya yayılan, Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən pandemiya elan olunan yeni tip koronavirus ciddi fəsadlar törətməkdə davam edir. Artıq dünyada COVID-19 infeksiyasına yoluxanların sayı 45 milyonu ötüb. Hazırda bütün ölkələr pandemiyanın yeni dalğasını yaşayır. Bir çox ölkələrdə karantin rejimi sərtləşdirilir.**

# Karantin qaydalarına riayət etmək qələbəmizə də dəstəkdir

### Azərbaycan üzrə COVID-19-a yoluxma statistikası

Təəssüf ki, son həftələr bütün ölkələrdə olduğu kimi, Azərbaycanda da COVID-19-a gündəlik yoluxma və ölüm halları artıb, sanitar-epidemioloji durum pisləşib. Hətta oktyabrın 29-da ilk dəfə COVID-19-a yoluxma statistikası dördrəqəmli həddə çatıb. Odur ki, ölkəmizdə də koronavirusun ikinci dalğasının başladığını əminliklə demək olar.

*Ardı 10-cu səh.*

# Ermənistanda məğlubiyyət ağrısı, hərc-mərclik, pandemiya, sosial-iqtisadi tənəzzül...

### İşğalçı ölkə elə bir vəziyyətə düşüb ki, xilas olması mümkün deyil

**Cəbhədəki uğursuzluğa və güclənən pandemiyaya görə Ermənistan sonu görünməyən böhran içindədir. Bu səbəbdən ölkədə baş nazir Nikol Paşinyanın idarəçiliyinə qarşı etiraz dalğası genişlənməkdədir.**

Bu etirazlarda istefa tələblərinin artması iqtidarın vəziyyətini xeyli ağırlaşdırıb. Siyasi-ictimai gərginliyin dərinləşməsi Ermənistanda hər an iqtidarın inqilabi yolla devrilməsini istisna etmir.

Hakimiyyət etirazları səngitmək üçün diqqəti müxtəlif istiqamətlərə yönəldir. Belə ki, Azərbaycan Ordusu qarşısındakı məğlubiyyəti cəmiyyətə heç cür izah edə bilməyən N.Paşinyan struktur dəyişiklikləri ilə ictimaiyyətin diqqətini yayındırmağa çalışır.

*Ardı 11-ci səh.*

**Düşmənin 2 "Su-25" tipli hücum təyyarəsi məhv edilib, 311 tankı - 255-i məhv edilib, 53-ü qənimət kimi götürülüb; 79 ədəd piyadaların döyüş maşını - 50-si məhv edilib, 29-u qənimət kimi götürülüb; 307 ədəd müxtəlif çaplı toplar - 251-i məhv edilib, 4 ədəd "Qvozdika" özüyeriyən haubitsası, 24-ü qənimət kimi götürülüb; 106 ədəd minaatan - 61-i məhv edilib, 45-i qənimət kimi götürülüb; 54 ədəd tank əleyhinə vasitə; 88 "Qrad" qurğusu; 2 "Uraqan" Yaylım Atəşli Raket Sistemi; 1 "Tos"; zenit-raket kompleksləri - 4 "Tor", 42 "Osa", 4 "Kub", 1 "Kruq", 2 "S-125" qurğusu; 6 "S-300" atıcı qurğusu; 14 ədəd müxtəlif artilleriya qurğusu, 1 aşkaretmə stansiyası; 1 lokator; əməliyyat taktiki raket kompleksləri - 2 ədəd "Elbrus"; yeni istismara verilmiş raket-artilleriya silahları anbarı, 1 ədəd "Toçka-U", P-18 radiolokasiya stansiyası məhv edilib; 426 yük avtomobili - 237-i, onlardan 20-si sursatı ilə birgə məhv edilib, 173 yük avtomobili hərbi qənimət kimi götürülüb.**

# "Bələdiyyələrin əraziləri və torpaqları haqqında" Azərbaycan Respublikasının Qanununa əlavə edilmiş "Azərbaycan Respublikasında bələdiyyələrin siyahısı"nda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 3-cü bəndini rəhbər tutaraq, "Naxçıvan Muxtar Respublikasının Babək rayonunun inzibati ərazi bölgüsündə qismən dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2020-ci il 12 iyun tarixli 128-VIQ nömrəli Qanununun tətbiqi ilə əlaqədar **qərara alır:**

"Bələdiyyələrin əraziləri və torpaqları haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 12, maddə 689; 2001, № 11, maddə 677; 2002, № 5, maddə 237; 2003, № 6, maddə 273, № 8, maddə 419; 2004, № 7, maddə 522, № 10, maddə 784, № 12, maddələr 982, 987; 2005, № 4, maddə 283, № 10, maddə 884; 2007, № 3, maddə 212, № 11, maddə 1051; 2008, № 5, maddələr 346, 347, № 8, maddə 708, № 11, maddə 959; 2009, № 4, maddə 214, № 7, maddələr 503, 511, № 10, maddə 770, № 12, maddə 963; 2010, № 7, maddə 605, № 11, maddələr 942, 943, 961; 2011, № 3, maddə 166, № 7, maddə 613; 2012, № 2, maddə 54, № 3, maddə 192, № 6, maddə 525, № 9, maddə 840, № 11, maddə 1059; 2013, № 3, maddə 233, № 6, maddə 597, № 11, maddələr 1262, 1263, № 12, maddə 1490; 2014, № 5, maddə 463, № 7, maddə 760, № 11, maddə 1375; 2015, № 7, maddə 820, № 12, maddə 1440; 2016, № 2 (II kitab), maddə 222; 2019, № 1, maddə 2) əlavə edilmiş "Azərbaycan Respublikasında bələdiyyələrin siyahısı"nın "Babək rayonu" bölməsində aşağıdakı dəyişikliklər edilsin:

1. 59.3-cü sətirdə "Əhatə etdiyi ərazi vahidləri" sütununda "Babək qəsəbəsi" sözləri "Babək şəhəri" sözləri ilə əvəz edilsin.
2. 59.4-cü sətirdə "Əhatə etdiyi ərazi vahidləri" sütununda "Cəhri kəndi" sözləri "Cəhri qəsəbəsi" sözləri ilə əvəz edilsin.
3. 59.17-ci sətirdə "Əhatə etdiyi ərazi vahidləri" sütununda "Nehrəm kəndi" sözləri "Nehrəm qəsəbəsi" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 oktyabr 2020-ci il*

# Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 3 mart tarixli 391 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Xidməti pasport almaq hüququ olan vəzifəli şəxslərin siyahısı"nda dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 3 mart tarixli 391 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 3, maddə 172; 2012, № 2, maddə 68, № 5, maddə 426, № 9, maddə 851, № 12, maddə 1248; 2013, № 9, maddə 1063; 2014, № 9, maddə 1033; 2016, № 2 (II kitab), maddə 236; 2017, № 3, maddə 383, № 10, maddə 1782, № 11, maddə 2022; 2018, № 5, maddə 971; 2019, № 3, maddə 395; 2020, № 1, maddə 12) ilə təsdiq edilmiş "Xidməti pasport almaq hüququ olan vəzifəli şəxslərin siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 2-ci hissəyə "dövlət orqanlarının," sözlərindən sonra "Azərbaycan Respublikası Prezidentinin yaratdığı publik hüquqi şəxslərin," sözləri əlavə edilsin.

2. Aşağıdakı məzmunda 2.1-1-ci bənd əlavə edilsin:

"2.1-1. Azərbaycan Respublikası Prezidentinin yaratdığı publik hüquqi şəxslərin idarəetmə orqanlarının rəhbərləri (üzvləri);".

3. Aşağıdakı məzmunda 4-1-ci hissə əlavə edilsin:

"4-1. Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) baş redaktorları, redaksiya müdirləri, baş müxbirləri, böyük fotomüxbirləri, xarici ölkələrdə çalışan müxbirləri.".

4. 5.3-cü bəndə "işçiləri" sözündən sonra "və Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC-ın) xarici ölkələrdə çalışan müxbirləri" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 oktyabr 2020-ci il*

# Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 6 iyun tarixli 648 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"nə uyğun olaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 6 iyun tarixli 648 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 6, maddə 542; 2013, № 1, maddə 29, № 2, maddə 117, № 3, maddə 246, № 8, maddə 909, № 10, maddə 1155, № 12, maddə 1514; 2014, № 5, maddələr 477, 487, № 9, maddə 1027, № 12, maddə 1577; 2015, № 3, maddə 271, № 9, maddə 1005, № 11, maddə 1322, № 12, maddə 1448; 2016, № 2 (II kitab), maddə 273, № 5, maddələr 859, 864, № 8, maddə 1384, № 9, maddə 1464, № 10, maddə 1647, № 11, maddə 1835; 2017, № 3, maddə 353, № 4, maddə 545, № 5, maddə 807, № 8, maddə 1521, № 10, maddə 1797; 2018, № 2, maddələr 191, 215, № 3, maddə 427, № 4, maddə 659, № 7 (I kitab), maddə 1462, № 10, maddə 2017, № 12 (I kitab), maddələr 2538, 2596; 2019, № 3, maddə 406, № 4, maddə 655, № 5, maddələr 820, 826, 848, 852, 857, № 6, maddə 1037, № 12, maddə 1936; 2020, № 1, maddə 7, № 8, maddə 1039) ilə təsdiq edilmiş "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

1.1. 3.2.3-cü yarımbəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 3.2.4-cü yarımbənd əlavə edilsin:

"3.2.4. müvafiq ərazidə təşkil olunmuş bələdiyyələr cəlb edilməklə kənd yerləri üzrə qısamüddətli, ortamüddətli və uzunmüddətli inkişaf planlarının hazırlanmasını təmin edir.";

1.2. 4.2.3-cü yarımbəndə "proqramlarının" sözündən sonra ", o cümlədən müvafiq ərazidə təşkil olunmuş bələdiyyələr cəlb edilməklə kənd yerləri üzrə qısamüddətli, ortamüddətli və uzunmüddətli inkişaf planlarının" sözləri əlavə edilsin.

2. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə birlikdə kənd yerləri üzrə qısamüddətli, ortamüddətli və uzunmüddətli inkişaf planlarına dair metodiki göstərişin üç ay müddətində hazırlanmasını və yerli icra hakimiyyəti orqanlarına göndərilməsini, habelə ehtiyac olduqda, bununla bağlı təşkilati dəstəyi təmin etsin.

3. Müəyyən edilsin ki, yerli icra hakimiyyəti orqanları tərəfindən kənd yerləri üzrə qısamüddətli, ortamüddətli və uzunmüddətli inkişaf planlarının hazırlanması və təsdiq olunması şəhər inzibati ərazi vahidlərinə münasibətdə 2021-ci ildən, digər inzibati ərazi vahidlərinə münasibətdə isə 2022-ci ildən etibarən həyata keçirilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 oktyabr 2020-ci il*

# Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 23 fevral tarixli 225 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Tələbə-məzun" dövlət elektron məlumat sistemi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin "Tələbə-məzun" dövlət elektron məlumat sisteminə qoşulmasını təmin etmək məqsədilə, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 23 fevral tarixli 225 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 2, maddə 89, № 7, maddə 621; 2014, № 5, maddə 477, № 9, maddə 1027; 2015, № 4, maddə 373, № 6, maddə 704, № 7, maddə 836; 2016, № 8, maddə 1384; 2017, № 5, maddə 805, № 8, maddə 1521, № 12 (I kitab), maddə 2306) ilə təsdiq edilmiş "Tələbə-məzun" dövlət elektron məlumat sistemi haqqında Əsasnamə"yə aşağıdakı məzmunda 6.10-3-cü bənd əlavə edilsin:

"6.10-3. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi;".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 oktyabr 2020-ci il*

# "Siz var olduqca Azərbaycan xalqının yaşayacağı gözəl günlər çox olacaq"



Saatlı rayonun sakini **Fariz Ağayev:** "Müzəffər Ali Baş Komandan, bu sevinci bizə yaşatdığınıza görə Sizə Saatlı sakinləri adından dərin minnətdarlığımızı bildiririk. Cənab Prezident, bir təhsil işçisi kimi inanıram ki, pedaqoji fəaliyyətimizi Şuşada, Xankəndidə, Laçında davam etdirəcəyimiz günlər lap yaxındadır. Bildirmək istəyirik ki, hər zaman Sizin əmrinizi gözləyirik. Hər birimiz Vətənimiz naminə son damla qanımızadək döyüşməyə hazırıq. Yaşasın Azərbaycan! Qarabağ Azərbaycandır!"

Bakı şəhər sakini **Cavad Quliyev** yazır: "Müzəffər Ali Baş Komandan, bir talış, bir lənkəranlı olaraq Sizə təşəkkür edirəm. 30 ilə yaxın işğal altında qalan torpaqlarımızı, doğma Qarabağımızı düşmən tapdağından azad edirsiniz. Bu, Sizin yüksək savadınız və güclü iradənizin nəticəsində mümkün olmuşdur. Bütün xalqımız Sizə sonsuz təşəkkür edir və ətrafınızda sıx birləşib. Allah Sizi və mətin Ordumuzu qorusun! Cənab Prezident, çox təəssüflənirəm ki, bir vətəndaş olaraq, Vətənə olan borcumu yerinə yetirə bilmirəm. Çox istərdim ki, məni də Ordu sıralarına daxil etsinlər. Bu Vətən üçün canımı da, qanımı da verməyə hazıram. Yaşasın Müzəffər Ali Baş Komandan! Yaşasın Azərbaycan! Qarabağ Azərbaycandır!"

Qubadlı sakini **Çingiz Salmanov:** "Möhtərəm Prezident, müzəffər Ali Baş Komandan, nəhayət, gözlədiyimiz gün gəldi. İyirmi yeddi il həsrətdən sonra Zəngəzurun qapısı adlandırılan Qubadlı rayonu mənfur düşmən tapdağından azad edildi. İllərdi bu günü gözləyir, Vətən həsrəti ilə yaşayırdıq. Artıq buna son qoydunuz, xalqımın qəhrəman, yenilməz oğlu. Bizi əbədi və əzəli dədə-baba torpaqlarımıza qovuşdurduğunuz üçün Sizə dərin təşəkkürümü bildirirəm. İnşallah, Sizin göstərişinizlə müzəffər Azərbaycan Ordusu digər işğal altında olan torpaqlarımızı yaxın günlərdə düşmən tapdağından azad edərək şanlı Azərbaycanımızın üçrəngli bayrağını yüksəklərə qaldıracaqdır. Cənab Prezident, Sizin bu haqq işiniz və adınız bir sərkərdə olaraq gələcək nəsillərin yaddaşında qalmaqla qızıl hərflərlə tarix dərsliklərində yazılacaqdır. Mən fəxr edirəm ki, mənim xalqımın Sizin kimi ağıllı, savadlı, uzaqgörən Prezidenti var. Allah Sizi qorusun. Qarabağ Azərbaycandır!"

Ağcabədi sakini **Səbuhi Atakişiyev:** "Hörmətli cənab Ali Baş Komandan, son günlər Azərbaycan Ordusu tarix yazmaqda davam edir. Çox xoşbəxtik ki, qazanılan qələbələrin canlı şahidiyik. Müzəffər Ali Baş Komandan, hər gün azad olunmuş torpaqlarımızın xəbərini eşitdikcə böyük qürur hissi keçiririk. Siz bu gün milyonların arzusunu reallaşdırırsınız, Sizə Ulu Tanrıdan güc-qüvvət arzu edirik. İnanırıq ki, rəşadətli Azərbaycan Ordusu üçrəngli bayrağımızı Şuşada dalğalandıracaq. Eşq olsun Ali Baş Komandanımıza, eşq olsun Azərbaycan Ordusuna. Qarabağ Azərbaycandır!"

Bərdə sakini **Rauf Xanlarov:** "Hörmətli Prezident, cənab Ali Baş Komandan, Mən Sizinlə fəxr edirəm. Azərbaycanımızın torpaqlarının qarış-qarış azad edilməsi barədə dilinizdən çıxan sevinc dolu cümlələri, məntəqələrimizin adlarını çəkdiyiniz saniyələri qürurla izləyirəm. Cənab Prezident, son illər etdiyiniz kadr dəyişiklikləri, COVID-19 pandemiyası ilə apardığınız mübarizə tədbirləri və nəhayət ki, qəlbimizdə yara bağlamış Qarabağ həsrətinə son qoymaq üçün başladığınız Vətən müharibəsi bir daha sübut etdi ki, Siz var olduqca Azərbaycan xalqının yaşayacağı gözəl günlər çox olacaq. Sizə inanıram və güvənirəm. Kaş hər gün dilinizdən çıxan o "Qarabağ Azərbaycandır!" ifadəsini televiziyadan yox, Sizin qarşınızda duraraq eşidəydim. Allah Sizi və rəşadətli əsgərlərimizi qorusun! Fəxr edirəm ki mən azərbaycanlıyam! Qarabağ Azərbaycandır!"

Bakı şəhər sakini **Cavid Şamoyev:** "Çox hörmətli Prezident, cənab Ali Baş Komandan, mənim adım Cavid Şamoyevdir. 13 yaşım var və torpaqlarımızın azadlığı uğrunda döyüşmək istəyirəm. Yaşım az olsa da, əlimdən gələni əsirgəmərəm. Mənim qardaşım hərbi xidmətdədir. Mən də onun kimi Vətənimin keşiyində durmaq istəyirəm. Əminəm ki, çox yaxın zamanda Siz başda olmaqla, Azərbaycan Ordusu qələbə qazanacaqdır. Sizə və qəhrəman əsgərlərimizə böyük uğurlar arzu edirəm. Yaşasın Azərbaycan! Yaşasın Ali Baş Komandan! Qarabağ Azərbaycandır!"

# Azərbaycanın Xarici İşlər naziri Cenevrədə ATƏT-in Minsk qrupunun həmsədrləri ilə görüşüb

**Oktyabrın 30-da Xarici İşlər naziri Ceyhun Bayramovun Cenevrədə ATƏT-in Minsk qrupunun həmsədrləri ilə görüşü keçirilib.**

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüş zamanı nazir Azərbaycanın mövqeyi barədə qarşı tərəfə məlumat verərək, Ermənistanın destruktiv əməlləri, mülki şəxslərin və yaşayış məntəqələrinin hədəfə alındığı, dinc əhaliyə qarşı qadağan olunmuş silahlardan istifadə edildiyi və müharibə cinayətlərinin törədildiyini qarşı tərəfin diqqətinə çatdırıb.

Daha sonra ATƏT-in Minsk qrupunun həmsədrləri, Azərbaycan və Ermənistan Xarici İşlər nazirləri arasında görüş başlayıb. Görüş hazırda davam edir.

# İşğaldan azad olunmuş sərhəd zastavaları üzərində Azərbaycanın dövlət bayrağı dalğalanır







**İşğaldan azad edilmiş Cəbrayıl və Zəngilan rayonları ərazisindəki "Soltanlı", "Xələfli", "Xudafərin" və "Qumlaq" sərhəd zastavaları üzərində oktyabrın 30-da Azərbaycan Respublikasının dövlət bayrağı ucaldılıb və bu sərhəd zastavaları xidməti-döyüş fəaliyyətinə başlayıblar.**

AZƏRTAC xəbər verir ki, bu münasibətlə təşkil edilmiş tədbirdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ali Baş Komandanlığı altında əzəli Azərbaycan torpaqlarından Ermənistan silahlı qüvvələrinin qovulması üzrə aparılan uğurlu döyüş əməliyyatlarımızın Böyük Qələbə gününü anbaan yaxınlaşdırdığı vurğulanıb.

Azərbaycan-İran dövlət sərhədinin Azərbaycan sərhədçiləri tərəfindən tam nəzarətə götürülməsinin böyük hərbi-siyasi və iqtisadi əhəmiyyət daşıması, İran İslam Respublikasının sərhəd mühafizə orqanları ilə faydalı əməkdaşlıq münasibətlərinin yüksək səviyyədə inkişaf etməsi, Azərbaycan və İran sərhədçilərinin bilavasitə dövlət sərhədində qarşılıqlı əlaqələrinin və birgə fəaliyyətlərinin sərhəd təhlükəsizliyinin təminatı üçün mühüm əhəmiyyət kəsb etməsi xüsusi qeyd olunub.

Dövlət sərhədində xidmət aparan hər bir sərhədçi zabitin, gizirin, çavuşun və əsgərin hərbi-vətənpərvərlik ruhunun yüksək olması, Vətən sərhədlərinin keşiyində qürurla xidmət etmələri, işğaldan azad edilən sərhəd zastavalarında ən qısa müddətdə müasir sərhəd mühafizə infrastrukturunun formalaşdırılacağı, hərbi qulluqçular və onların ailə üzvləri üçün zəruri xidmət və yaşayış şəraitinin yaradılacağı bildirilib.

Qeyd edək ki, Azərbaycan-İran dövlət sərhədinin 132 kilometrlik hissəsinin işğaldan azad edilməsi Azərbaycan Respublikasının dövlət sərhədlərinin tam bərpası üçün son dərəcə önəmli hadisədir.

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin oktyabrın 19-da Xudafərin körpüsündə Azərbaycan bayrağının qaldırılması və DSX-nin iştirakı ilə bir neçə yaşayış məntəqəsinin azad edilməsi münasibətilə Dövlət Sərhəd Xidmətinin şəxsi heyətini təbrik etməsi, oktyabrın 22-də isə Azərbaycan-İran dövlət sərhədinin tam nəzarətə götürülməsinin təmin olunması münasibətilə bütün Azərbaycan xalqını təbrik etməsi hər bir Azərbaycan sərhədçisi tərəfindən böyük ruh yüksəkliyi ilə qarşılanıb.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırıqlarına əsasən bu ərazilərdə xidməti-döyüş fəaliyyətinin təşkil edilməsi, zəruri sərhəd mühafizəsi sisteminin bərpa edilməsi istiqamətində hazırda təxirəsalınmaz tədbirlər həyata keçirilir.

1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş və 27 ildən sonra azad edilmiş bu ərazilərdə dövlət sərhədinin mühafizəsi Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının "Horadiz" sərhəd dəstəsinin şəxsi heyəti tərəfindən təşkil olunur.

# Azərbaycanın Baş Naziri Türkiyənin vitse-prezidentinə zəng edib

**Azərbaycan Respublikasının Baş Naziri Əli Əsədov oktyabrın 30-da Türkiyə Respublikasının vitse-prezidenti Fuat Oktaya telefonla zəng edib.**



Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Baş Nazir Azərbaycan Respublikası Prezidentinin tapşırığına əsasən, Türkiyədə baş vermiş zəlzələ ilə əlaqədar Azərbaycanın qardaş ölkəyə hər cür yardım göstərməyə hazır olduğunu vurğulayıb.

Fuat Oktay telefon zənginə və göstərilən diqqətə görə minnətdarlığını bildirib.

# Baş Nazir Əli Əsədov Pakistanın Azərbaycandakı səfiri ilə görüşüb



Azərbaycan Respublikasının Baş Naziri Əli Əsədov oktyabrın 30-da Pakistan İslam Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Bilal Haye ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan ilə Pakistan arasında müxtəlif sahələrdə əməkdaşlığın inkişafından məmnunluq ifadə edilib. Siyasi, ticari-iqtisadi, hərbi, humanitar və digər sahələrdə ikitərəfli əlaqələrin perspektivləri ətraflı müzakirə edilib.

Baş Nazir Əli Əsədov Ermənistan silahlı qüvvələrinin hazırda davam edən təcavüzü ilə bağlı Pakistanın Azərbaycana verdiyi dəstəyə və göstərdiyi qəti mövqeyə görə təşəkkürünü bildirib.

Səfir Bilal Haye Dağlıq Qarabağ münaqişəsi başlayandan bəri Pakistanın hər zaman Azərbaycanın yanında olduğunu vurğulayıb.

# Ermənistan Gəncə, Tərtər və Bərdənin mülki əhalisinə qarşı törətdiyi terrora görə cavab verəcək

**"Ermənistan döyüş meydanında məğlubiyyətini etiraf edir və Azərbaycanın mülki şəxslərini hədəfə alaraq bəşəri və insani dəyərlərə, beynəlxalq hüquq və konvensiyalara məhəl qoymur, terror və soyqırımı aktları törədərək hərbi cinayətlər həyata keçirir. Bütün iqtisadi-siyasi uğurlarına görə regional gücə sahiblənən Azərbaycana qarşı törədilən terror aktlarının əsas məqsədi, riyakar və mənfur düşmənin ölkə rəhbərliyi döyüş meydanındakı məğlubiyyətini pərdələyərək mülki şəxsləri qətlə yetirməklə nüfuzunu yüksəltməyə çalışır".**

AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri Məhərrəm Əliyevin "Ermənistan Gəncə, Tərtər və Bərdənin mülki əhalisinə qarşı törətdiyi terrora görə cavab verəcək" sərlövhəli məqaləsində yer alıb. Məqaləni təqdim edirik.

Ermənistan silahlı qüvvələrinin döyüş əməliyyatları zonasından kənarda yerləşən Bərdə şəhərini raket atəşinə məruz qoyaraq humanitar atəşkəs rejiminin şərtlərini növbəti dəfə kobud şəkildə pozması nəticəsində vətəndaşlarımızın həlak olması düşmənin açıq-aşkar beynəlxalq hüquq normalarını və prinsiplərini heçə sayması deməkdir. "Smerç" qurğusundan buraxılmış kasetli raketlərlə atəş nəticəsində 21 nəfər həlak olub, 70-dən çox insan isə müxtəlif dərəcəli bədən xəsarətləri alıb. Ermənistan Respublikası silahlı qüvvələrinin beynəlxalq hüququn norma və prinsiplərini, habelə elan edilmiş humanitar atəşkəs rejiminin tələblərinə məhəl qoymaması dünya ictimaiyyəti tərəfindən ümumbəşəri dəyər və beynəlxalq hüquq prinsiplərinin pozulması kimi qəbul edilməli və hərbi cinayət aktları qəti şəkildə pislənməlidir.

Azərbaycan istər siyasi, istərsə də sosial-iqtisadi sahələrdə dünya ölkələri ilə bütün istiqamətlərdə uğurlu əməkdaşlıq edən dövlətlər sırasındadır. Ermənistanın mülki əhalimizə qarşı cinayətkar terror hücumlarına Azərbaycan yalnız və yalnız döyüş meydanında layiqli şəkildə cavab verir və həlak olan mülki şəxslərimiz və şəhidlərimizin qisasını alır. Azərbaycan Ordusu Ali Baş Komandanın rəhbərliyi və liderliyi ilə hərbi güc və potensialımızın möhkəmlənməsi uğrunda həyata keçirilmiş dövlət siyasətinin nəticəsində ən yüksək resurs və təminata malikdir. Bu uğurlar Azərbaycan Ordusunun qələbəsinin təminatıdır. Azərbaycan Ordusu ən müasir silah və texnikalara sahibdir və döyüş meydanında heç bir kənar qüvvənin təsiri olmadan zəfər çalır. Düşmən isə terrorçu qruplaşmaları ilə birgə, havadarlarının dəstəyinə baxmayaraq, döyüş meydanında məğlubiyyətə düçar olur.

Azərbaycan nəinki öz ərazi bütövlüyü uğrunda döyüşür, eyni zamanda regionda daimi sülhün və sabitliyin təmin olunması üçün beynəlxalq terrorizmlə mübarizə aparır. Dünya dövlətləri işğalçı və terrorist dövlətə dur deməli və regionda ədalətin və sülhün təmin edilməsində Azərbaycana dəstək olmaqla sülhə, sabitliyə, ümumbəşəri dəyər və beynəlxalq hüquq normalarının qorunmasına töhfə vermiş olarlar. Ermənistan dövlətinin terrorçu və işğalçı siyasəti bütün dünyaya məlumdur. Xocalı soyqırımının eyniadlı ssenarisi ilə Gəncə, Bərdə Tərtər və digər rayon və şəhərlər atəşə tutulur. Azərbaycan dövləti məğlubedilməz və şanlı Azərbaycan Ordusunun yüksək döyüş əzmi və ruhu ilə regionda sülhün və sabitliyin təmin edilməsinə nail olacaq.

Gəncə, Bərdə, Tərtər və digər rayon və şəhərlərin mülki əhalisinin sıx yaşadığı ərazilərin xüsusi olaraq seçilməsi və davamlı atəşə tutulması Ermənistanın azğınlaşmış hərbi-siyasi rəhbərliyinin birbaşa göstərişi və tapşırığı ilə həyata keçirilir. Bu cür riyakar və mənfur əməlləri ordumuzun döyüş meydanında əldə etdiyi uğurlar və yeni ərazilərimizin işğaldan azad olunması ilə nəticələnəcəyinə inanırıq.

Bütün dünyaya bəllidir ki, ermənilər havadarlarının gücü və dəstəyi ilə Rusiya-İran müharibəsindən sonra bizim tarixi torpaqlarımıza, o cümlədən indiki Ermənistan ərazisinə XIX əsrin əvvəllərində köçürülüblər. 1978-ci ildə keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisindəki kəndlərin birində ermənilərin bu bölgəyə gəlməsinin 150 illiyini əks etdirən abidə ucaldılması onların dünyada yaymağa çalışdıqları yalan məlumatları tamamilə təkzib edir. İrəvan, Göyçə, Zəngəzur bölgələrinin - keçmişdə İrəvan xanlığına məxsus ərazilərin - Azərbaycanın tarixi torpaqları olduğunu sübut edən faktların ermənilər tərəfindən saxtalaşdırılması cəhdləri işğalçılıq niyyətlərinin hələ də davam etməsinin təzahürüdür. Ancaq Azərbaycan əzəli və əbədi torpaqlarından bir qarış belə güzəştə getməyəcək! Xalqımız olduqca məğrur, dözümlü və bir qarış torpaqdan belə vaz keçməyəcək qədər qətiyyətli və əzmlidir. Heç bir düşmən həmləsi və hiyləgərliyi mülki vətəndaşlarımızı çaşqın vəziyyətə salmayacaq və xalqımız Ali Baş Komandanımızın ətrafında daha sıx birləşərək qələbə qazanacaqdır.

Qələbə Azərbaycanındır! Qarabağ Azərbaycandır!

# Azərbaycan Milli Məclisinin Sədri Pakistan Milli Assambleyanın Sədrinə məktub ünvanlayıb

**Sentyabrın 27-də Ermənistanın hərbi təcavüzünə cavab olaraq Azərbaycan Ordusunun əks-hücum əməliyyatına başlamasından sonra Milli Məclisin Sədri Sahibə Qafarova Pakistan Milli Assambleyasının və Senatının sədrlərinə erməni təcavüzünün və işğalının qətiyyətlə pislənilməsi və Azərbaycanın haqlı mövqeyinin dəstəklənməsi ilə bağlı müraciət etmişdi.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, oktyabrın 28-də bu müraciətə cavab olaraq Pakistan İslam Respublikası Milli Assambleyasının plenar iclasında Ermənistanın Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinə və Azərbaycanın mülki əhalisinə qarşı təcavüzünü pisləyən qətnamə qəbul edilib. Qətnamə deputat, sabiq spiker Sərdar Ayaz Sadiqin təşəbbüsü ilə Assambleyaya təqdim olunub və yekdilliklə təsdiqlənib. Bununla bağlı Milli Məclisin Sədri Sahibə Qafarova Pakistan Milli Assambleyasının Sədri Əsəd Qeysərə məktub ünvanlayıb.

Sahibə Qafarova məktubda Azərbaycan Respublikası Milli Məclisinin bütün üzvləri adından və öz adından başda Əsəd Qeysər olmaqla Pakistan Milli Assambleyasının bütün üzvlərinə dərin təşəkkürünü bildirərək, Pakistan parlamentinin belə bir qətnamə qəbul etməsini yüksək qiymətləndirib, ədalətin təntənəsi olan bu təşəbbüsün reallaşmasını alqışlayıb.

Milli Məclisin Sədri qeyd edib ki, Azərbaycan Pakistan İslam Respublikası ilə mövcud sıx əlaqələrin gələcəkdə daha da dərinləşdirilməsinə mühüm əhəmiyyət verir. Bildirilib ki, ölkələrimizin parlamentləri arasında əməkdaşlığın bundan sonra da möhkəmləndirilməsi xalqlarımız arasında münasibətlərin hərtərəfli inkişafına xidmət edəcəkdir. Pakistan İslam Respublikası xalqımızı narahat edən məsələlərdə daimi olaraq Azərbaycanın haqlı mövqeyini dəstəkləyib. Bu mənada 27 sentyabr tarixdən etibarən Ermənistanın Azərbaycana qarşı növbəti təcavüzü ilə bağlı qardaş Pakistanın ortaya qoyduğu qətiyyətli mövqe xüsusi vurğulana bilər. Pakistan Milli Assambleyasının qəbul etdiyi sonuncu qətnamə də Azərbaycan Respublikasının erməni təcavüzünə qarşı həyata keçirdiyi və ərazi bütövlüyünün bərpa edilməsinə yönəlmiş əks-hücum əməliyyatına mühüm bir dəstəkdir.

"Müasir beynəlxalq münasibətlərdə parlament diplomatiyasının artan rolunu nəzərə alaraq hesab edirik ki, Ermənistanın Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinə və Azərbaycanın mülki əhalisinə qarşı təcavüzünü pisləyən qətnamə bu təcavüzün aradan qaldırılmasında parlament meyarının tətbiq olunması baxımından mühüm əhəmiyyət kəsb edir", - deyə məktubda qeyd olunur.

# Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin onlayn iclası olub

Oktyabrın 30-da Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin onlayn formatda iclası keçirilib. İclasda Milli Məclis Sədrinin birinci müavini, komitə sədri Əli Hüseynli gündəliyə daxil olan 3 məsələni diqqətə çatdırıb.





Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, əvvəlcə Meşə Məcəlləsində, Torpaq Məcəlləsində, Mülki Məcəllədə, "Torpaq islahatı haqqında", "Torpaq bazarı haqqında", "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında", "Dövlət rüsumu haqqında", "Daşınmaz əmlakın dövlət reyestri haqqında" və "Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında" qanunlarda dəyişiklik edilməsi ilə bağlı qanun layihəsi barədə ikinci oxunuşda məlumat verilib. Bildirilib ki, qanun layihəsi "Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında" 2018-ci il 28 dekabr tarixli 1438-VQD nömrəli Qanunun icrası məqsədilə hazırlanıb.

Belə ki, Mülki Məcəlləyə əsasən, girov və ipoteka eyni hüquqi yükə malik olmaqla, hər ikisi əşya hüquqlarının məhdudlaşdırılmasının formalarıdır. Lakin daşınar əşyalara münasibətdə girov, daşınmaz əşyalara, habelə rəsmi reyestrdə qeydə alınmalı olan daşınar əşyalara münasibətdə isə ipoteka terminindən istifadə olunur. Bu məqsədlə Meşə Məcəlləsində, Torpaq Məcəlləsində, "Torpaq islahatı haqqında", Torpaq bazarı haqqında" və "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında" qanunlarda müvafiq dəyişiklik - "girov" sözünün "ipoteka" sözü ilə əvəz edilməsi təklif olunur.

Qeyd olunub ki, torpaq sahələri, binalar və qurğular, yaşayış və qeyri-yaşayış sahələri, fərdi yaşayış və bağ evləri, yer təki sahələri, sututarları, meşələr və çoxillik əkmələr, əmlak kompleksi kimi müəssisələr hər biri daşınmaz əmlak olduğundan Mülki Məcəllənin 139-1.1.5-ci maddəsində müvafiq dəyişiklik nəzərdə tutulur.

"Torpaq bazarı haqqında" qanuna təklif olunan dəyişikliyə əsasən isə, ipoteka qoyulmuş torpaqların bazara çıxarılmasının xüsusiyyətləri "İpoteka haqqında" qanuna uyğun olaraq tənzimlənəcək.

Sonra komitə sədri "Hərbi qulluqçuların statusu haqqında", "Əhalinin sağlamlığının qorunması haqqında", "Yol hərəkəti haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Avtomobil yolları haqqında", "Özəl tibb fəaliyyəti haqqında", "Dövlət qulluğu haqqında", "Psixiatriya yardımı haqqında", "Onkoloji yardım haqqında" və "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" qanunlarda dəyişiklik edilməsi barədə layihəni ikinci oxunuşda təqdim edib. Diqqətə çatdırılıb ki, sənəd "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" 2019-cu il 3 dekabr tarixli 1718-VQD nömrəli Qanunun icrası ilə əlaqədar hazırlanıb.

Qeyd edilib ki, tibbi sığortaya keçidlə əlaqədar icbari tibbi sığorta olunanlara tibbi yardım xidmətlər zərfində nəzərdə tutulduğu hallarda icbari tibbi sığorta haqları hesabına, digər hallarda isə dövlət büdcəsi hesabına göstəriləcək. Bununla əlaqədar adları göstərilən qanunlara müvafiq düzəlişlər edilib. Bir sıra qanunlarda həmçinin uyğunlaşdırma, terminologiyanın dəqiqləşdirilməsi məqsədilə bəzi dəyişikliklər təklif olunur.

İclasda komitə sədri Əli Hüseynli "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini birinci oxunuşda təqdim edib. Diqqətə çatdırılıb ki, layihədə təklif edilən dəyişikliklərin bir qismi dövlət qulluqçusuna müəyyən edilmiş tələblər nəzərə alınmadan növbəti ixtisas dərəcəsi verilməsinin, yuxarı inzibati vəzifəyə təyin edilmə hallarının, aşağı ixtisas dərəcəsinin hansı hallarda verilməsinin mümkünlüyünün əsaslarını müəyyən edir. Digər dəyişiklik dövlət qulluqçularına ixtisas dərəcələri verilərkən onların xüsusi, hərbi və diplomatik rütbələrinin nəzərə alınması ilə bağlıdır.

Bundan əlavə, qanunda əvvəl mövcud olmuş "Dövlət qulluqçularının fəaliyyətinin qiymətləndirilməsi" adlı 30-1-ci maddənin təkmilləşdirilməsi təklif olunur. Belə ki, maddənin yeni redaksiyasında, əvvəlkindən fərqli olaraq, hansı kateqoriya dövlət qulluqçularının fəaliyyətinin qiymətləndirilməsinə zərurət olmadığı müəyyən edilir, qiymətləndirmə zamanı yekun qiymət verilərkən vacib olan meyarların hədləri konkretləşdirilir.

İclasın sonunda qanun layihələri Milli Məclisin plenar iclasında baxılmaq üçün tövsiyə olunub.

# Milli Məclisə xarici ölkələrin parlamentlərindən erməni təcavüzkarlığını pisləyən məktublar gəlməkdə davam edir

**Milli Məclisə xarici ölkələrin parlamentləri tərəfindən Ermənistanın Azərbaycanın mülki əhalisinə qarşı təcavüzünü pisləyən məktublar gəlməkdə davam edir.**

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, bu günlərdə Bolqarıstan Xalq Məclisində Azərbaycanla Dostluq Qrupunun sədri, Hüquq və Azadlıqlar Uğrunda Hərəkat partiyasının parlament qrupunun sədr müavini Həmid Həmid Azərbaycan-Bolqarıstan Parlamentlərarası Dostluq Qrupunun rəhbəri Rauf Əliyevə məktub ünvanlayıb.

Məktubda Ermənistan silahlı qüvvələrinin Azərbaycanın mülki əhalisinə qarşı hücumları şiddətlə qınanılır. Bildirilir ki, dinc əhaliyə qarşı hücumlar beynəlxalq hüququn norma və prinsiplərinin, eləcə də elan olunmuş humanitar atəşkəsin pozulmasıdır. Dinc əhalinin qəsdən öldürülməsi müharibə cinayəti və insanlıq əleyhinə cinayətdir.

Məktubda hərbi və mülki itkilərlə nəticələnən hərbi toqquşmalardan dərin narahatlıq ifadə olunur, münaqişənin beynəlxalq hüququn norma və prinsipləri, həmçinin BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi 4 qətnaməyə uyğun olaraq Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünə hörmət əsasında həlli yolu dəstəklənir.

# AZƏRTAC Ermənistanın Bərdəyə terror hücumları ilə bağlı beynəlxalq KİV-ə müraciət edib

**AZƏRTAC Ermənistan silahlı qüvvələrinin Bərdə şəhərinə vəhşi terror hücumları ilə bağlı beynəlxalq və regional xəbər agentlikləri təşkilatlarının üzvü olan agentliklərin rəhbərlərinə müraciət edib.**





Dünya Xəbər Agentlikləri Konqresinə (NAWC), Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatına (OANA), Avropa Xəbər Agentlikləri Alyansına (EANA), İslam Əməkdaşlıq Təşkilatı ölkələrinin Milli Xəbər Agentlikləri Birliyinə (UNA) üzv olan agentliklərin rəhbərlərinə ünvanlanan müraciətdə Ermənistan hərbi-siyasi rəhbərliyinin azərbaycanlı mülki əhaliyə qarşı həyata keçirdiyi terror aktlarının davamı olan Bərdə faciəsinin ağır nəticələri barədə məlumat verilir. Həmçinin bu hadisələr fonunda Ermənistan tərəfinin uydurduğu feyk xəbərlərin bəzi beynəlxalq KİV-ə yol tapmasından narahatlıq ifadə olunur.

Qeyd edilir ki, döyüş meydanında məğlubiyyətə uğrayan Ermənistan silahlı qüvvələri ətrafdakı şəhər və kəndləri, eləcə də cəbhə xəttindən uzaqda yerləşən yaşayış məntəqələrini və mülki obyektləri hədəfə almaqda davam edir. Oktyabrın 28-də Bərdə şəhərinin beynəlxalq səviyyədə qadağan edilmiş kasetli raketlərlə atəşə tutulması nəticəsində uşaqlar, qadınlar və yaşlı insanlar da daxil olmaqla, 21 nəfər həlak olub, 70 nəfər yaralanıb, mülki infrastruktura külli miqdarda ziyan dəyib. Bundan bir gün əvvəl - oktyabrın 27-də isə rayonun kəndlərindən birinə edilmiş bənzər hücumda isə beş nəfər, o cümlədən yeddi yaşlı qız həyatını itirib, çoxlu sayda mülki şəxs xəsarət alıb.

"Sentyabrın 27-dən başlayaraq Azərbaycanın şəhər və kəndlərinə edilən vəhşi hücumlar nəticəsində, ümumilikdə, 90 dinc sakin həlak olub, 392 nəfər yaralanıb, 2500-ə yaxın fərdi ev və çoxmənzilli yaşayış binası, həmçinin 420-dən çox mülki infrastruktur obyekti dağılıb və ya ciddi zədələnib. Həlak olanların 11-i uşaq, 27-si qadın, 15-i ahıl şəxsdir. Yaralananlar arasında isə 14 körpə, 36 uşaq, 101 qadın, 45 ahıl şəxs var. Beləliklə, açıq-aşkar görünür ki, bu, Ermənistanın dövlət səviyyəsində həyata keçirdiyi terror aktlarıdır, mümkün qədər çox insanın öldürülməsinə hesablanan müharibə cinayətləridir", - deyə müraciətdə vurğulanır.

Təəssüflə qeyd olunur ki, bu və digər təkzibolunmaz fakt və sübutlara baxmayaraq, bəzi beynəlxalq KİV münaqişənin işıqlandırılmasına yenə də qərəzli yanaşır, təcavüzkarla təcavüzə məruz qalana fərq qoyulmur. Ermənistan tərəfinin feyk məlumatlarına əsaslanan xəbərlər yayılması, eləcə də dinc azərbaycanlı əhaliyə məqsədli hücumlarla bağlı mövqe bildirilməməsi Azərbaycanda haqlı narahatlıq doğurur.

Müraciətdə dünyanın aparıcı xəbər agentlikləri Ermənistanın azərbaycanlı mülki əhaliyə qarşı amansız terror hücumlarına və müharibə cinayətlərinə həssas yanaşmağa, münaqişə barədə həqiqətləri yaymağa çağırılır.

Xatırladaq ki, AZƏRTAC Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatının (OANA) vitse-prezidenti, Dünya Xəbər Agentlikləri Konqresi Şurasının (NACO) və İslam Əməkdaşlıq Təşkilatı üzvü olan ölkələrin Milli Xəbər Agentlikləri Birliyi Şurasının (UNA), Avropa Xəbər Agentlikləri Alyansının (EANA) üzvüdür.

# *Hikmət HACIYEV:* "Ermənistan bu gün hərbi təcavüz həyata keçirən tərəf kimi bütün cinayətlərə görə birbaşa məsuliyyət daşıyır"

Ən əsası isə odur ki, Azərbaycan əsgəri dinc əhalini qəsdən hədəfə almır. Hətta düşmən bizim döyüş bölgəsindən uzaq şəhərlərimizə ballistik raket atsa belə, onun cavabı savaş meydanında verilir. Prezident İlham Əliyevin dediyi kimi, biz qisasımızı döyüş meydanında müqavimət göstərən əlisilahlı düşmənlərdən alırıq.

Başıbəlalı Ermənistanın baş naziri elə fikirləşirdi ki, "Dağlıq Qarabağda erməni xalqına qarşı soyqırımı törədilir" bəyanatından sonra dünya Azərbaycanın üzərinə gələcək. Belə olmadı. Onun dediyinin ağ yalan olduğunu hətta ermənipərəst siyasətçilər və jurnalistlər də etiraf etdilər. "Erməni bülbülü" V.Solovyov Paşinyanın bu yalanını ifşa edərək bildirdi ki, Dağlıq Qarabağda heç bir erməni "soyqırımı" törədilmir. Bu o Solovyovdur ki, döyüşlər başlayanda Azərbaycan əsgərinin qisas alacağını, dinc ermənilərin "soyqırıma" məruz qalacağını söyləyirdi. Azərbaycan əsgərinin humanizmi, mülki əhali arasında itkilərin olmaması üçün arsenalındakı dağıdıcı silahlardan istifadə etməməsi hamını həqiqəti etiraf etməyə məcbur edir.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Müdafiə Nazirliyi xəbər verir

## Anar EYVAZOV: “Cəbhənin bütün istiqamətlərində vəziyyət ordumuzun nəzarəti altındadır”

**Ötən müddət ərzində humanitar atəşkəs rejimini pozan Ermənistan silahlı qüvvələri Goranboy, Tərtər, Ağdam və Ağcabədi rayonlarını, o cümlədən Gorus rayonu istiqamətindən Qubadlı rayonunun ərazilərini raket və artilleriya vasitələrindən atəşə tutub. Cəbhənin əsasən Ağdərə, Xocavənd və Qubadlı istiqamətlərində hücuma keçməyə cəhd edən düşmən bölmələrinin qarşısı qətiyyətlə alınıb.**



AZƏRTAC xəbər verir ki, bu barədə Müdafiə Nazirliyinin Mətbuat xidmətinin mətbuat katibi polkovnik-leytenant Anar Eyvazov oktyabrın 30-da Hərbi İnformasiya Mərkəzində keçirilən brifinqdə deyib.

Anar Eyvazov bildirib ki, döyüş texnikası və canlı qüvvə baxımından xeyli sayda itki verən düşmən geri çəkilməyə məcbur edilib. Bərdə və Tərtər şəhərlərinə raket hücumları həyata keçirən düşmənin üç ədəd “Smerç” yaylım atəşli reaktiv sistemi və ermənilərin qondarma özünümüdafiə ordusu adlandırdıqları Ermənistan silahlı qüvvələrinin 1-ci ümumqoşun ordusunun komandan müavini, o cümlədən düşmənin xeyli sayda canlı qüvvəsi, “Qrad” yaylım atəşli reaktiv sistemi, “Osa” zenit raket kompleksi, P-18 radiolokasiya stansiyası, 2 ədəd “Qvozdika” özüyeriyən haubitsası, 10 ədəd artilleriya topu, piyada döyüş maşını, 3 ədəd tankı, 4 ədəd avtomobil texnikası və yeni istismara verilmiş raket-artilleriya silahları anbarı bölmələrimizin dəqiq atəş zərbələri ilə məhv edilib.

Müdafiə Nazirliyinin mətbuat katibi bildirib ki, Azərbaycan Ordusunun uğurlu əməliyyatları çərçivəsində Cəbrayıl, Zəngilan və Qubadlı rayonlarının ümumilikdə 9 kəndi işğaldan azad edilib.

“Uğursuz fəaliyyətlərini gizlətmək məqsədilə müxtəlif dezinformasiyalar yayan düşmənin, guya, Azərbaycan Ordusuna aid silah anbarının və pilotsuz uçuş aparatının məhv edilməsi ilə bağlı məlumatları həqiqəti əks etdirmir. Hazırda cəbhənin bütün istiqamətlərində vəziyyət ordumuzun nəzarəti altındadır. Qələbə bizimlədir”, - deyə Anar Eyvazov vurğulayıb.

## Bərdə və Tərtər şəhərlərini atəşə tutan düşmənin daha iki “Smerç” sistemi və raket-artilleriya silahları anbarı məhv edilib





Bərdə və Tərtər şəhərlərində dinc əhalini və mülki infrastrukturu atəşə tutan Ermənistan silahlı qüvvələrinə məxsus növbəti 2 ədəd “Smerç” yaylım atəşli reaktiv sistemlərinin tutduğu mövqelər bölmələrimiz tərəfindən aşkarlanıb.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, oktyabrın 30-u saat 12.55 və saat 14:18 radələrində bölmələrimizin dəqiq atəşi ilə düşmənin 2 ədəd “Smerç” yaylım atəşli reaktiv sistemləri məhv edilib.

❖ ❖ ❖

Ermənistan mətbuatı, guya, Azərbaycan Ordusuna məxsus döyüş sursatı anbarının məhv edilməsi ilə bağlı növbəti yalan məlumat yayıb. Lakin düşmən həmin anbarın yaxın məsafədən çəkilmiş videogörüntüsünü məlumata əlavə etməklə öz saxtakarlığını bir daha ifşa edib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, həqiqətdə isə oktyabrın 29-da gecə saatlarında Ermənistan silahlı qüvvələrinin işğal olunmuş ərazimizdə yeni tikilmiş raket-artilleriya silahları anbarı bölmələrimiz tərəfindən məhv edilib.

## Ermənistanın Bərdəyə kasetli raketlərlə hücum etdiyini “Human Rights Watch” təşkilatı da təsdiqləyib

**Ermənistanın Azərbaycanın Bərdə şəhərinə istifadəsi qadağan olunmuş kasetli raketlərlə zərbələr endirdiyini “Human Rights Watch” təşkilatı da təsdiqləyib.**

AZƏRTAC xəbər verir ki, təşkilatın bununla bağlı yaydığı açıqlamada deyilir ki, Ermənistan qüvvələri oktyabrın 28-də Azərbaycanın paytaxtı Bakıdan 230 kilometr məsafədə yerləşən Bərdə şəhərinə beynəlxalq səviyyədə qadağan edilmiş kasetli döyüş sursatları atıb. Hücum nəticəsində ən azı 21 mülki şəxsin öldüyü və ən azı 70 nəfərin yaralandığı bildirilir. “Human Rights Watch” kasetli sursatın qalıqlarının beynəlxalq və yerli jurnalistlər, o cümlədən sakinlər tərəfindən çəkilən fotolarını analiz edib.

Qeyd edək ki, “Amnesty İnternational” təşkilatı da Ermənistanın Azərbaycanın dinc sakinlərinə qarşı kasetli raketlərdən istifadə etdiyini təsdiqləyib.

## Azərbaycan tərəfinin hücum cəhdi olmayıb

Ermənistan mətbuatı bu ölkənin müdafiə nazirliyinin rəsmisinə istinadən, guya, Azərbaycan Ordusunun hücum etmək cəhdi və itki verərək geri çəkilməsi barədə xəbər yayıb.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bu xəbər növbəti dezinformasiyadır və bölmələrimiz tərəfindən heç bir hücum cəhdi olmayıb.

## Azərbaycan Ordusuna məxsus PUA vurulmayıb

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ordumuza məxsus pilotsuz uçuş aparatının (PUA), guya, vurulması ilə bağlı məlumat yayıb.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a daxil olan məlumatda qeyd edilib ki, Azərbaycan Ordusuna məxsus PUA-nın, guya, cəbhə xəttində vurulması barədə Ermənistan tərəfinin yaydığı məlumat yalan və dezinformasiyadır.

## Düşmən Ağdamın, Ağcabədinin yaşayış məntəqələrini və Qubadlının ərazisini atəşə tutub

**Ermənistan silahlı qüvvələri oktyabrın 30-da səhər saatlarında Ağdam rayonunun yaşayış məntəqələrini ağır artilleriyadan atəşə tutub. Nəticədə sakinlərə məxsus yaşayış evlərinə, yardımçı binalara, təsərrüfatlara ciddi ziyan dəyib.**













AZƏRTAC-ın cəbhə bölgəsinə ezam olunmuş müxbiri düşmənin hədəfə aldığı kəndlərə gedərək, sakinlərlə həmsöhbət olub. Sarıçoban kənd sakini Məhərrəm Heydərov bildirib ki, döyüş meydanında müzəffər ordumuz qarşısında aciz qalan düşmən kəndləri, mülki şəxsləri artilleriya atəşinə tutur: “Səhər saat 6 radələri idi, evdə yatmışdıq. Güclü partlayış səsinə yuxudan oyandıq. Çölə çıxanda gördüm ki, su çəni deşilib. Məlum oldu ki, mərmi həyətimizə düşüb. Yaxınlıqda olan qardaşımın evinə və yardımçı tikilisinə daha çox ziyan dəyib. Düşmən istəyir ki, terror əməlləri ilə dinc sakinlərə ziyan vursun, bizi qorxutsun. Lakin bilsinlər ki, bu xain hərəkətləri ilə istəklərinə çata bilməyəcəklər”.

Erməni hərbçilərinin ən çox atəşə tutduqları yaşayış məntəqələrindən biri Əhmədağalı kəndidir. Bu gün səhər saatlarında kənd növbəti dəfə düşmənin artilleriya atəşinin hədəfi olub. Düşmənin atəşi nəticəsində kənd sakini Məhəmməd Quliyevin də evinə və təsərrüfatına ziyan dəyib. O deyib: “Səhər kəndimiz atəşə tutuldu. Mərminin partlaması nəticəsində tövlədəki mal-qaradan biri tələf olub, 10-u yaralanıb. Tövlə dağılıb, evə ziyan dəyib”.

Eyvaz Allahverdiyev düşmən təxribatlarının onları qorxutmadığını bildirib. “Düşmən demək olar ki, hər gün kəndimizi atəşə tutur. Bu gün səhər də kəndimiz atəşə tutuldu. Kəndin ərazisinə, ümumilikdə, 10-dan çox mərmi düşdü. Dağıntılar var. Lakin bu, bizi narahat etmir. Tək istəyimiz ordumuzun qələbə çalması, işğal altında olan torpaqlarımızın azad edilməsidir”, - deyə o, qeyd edib.

❖ ❖ ❖

Oktyabrın 30-u səhər saatlarında Goranboy, Tərtər, Ağdam və Ağcabədi rayonlarının ərazisi Ermənistan silahlı qüvvələri tərəfindən artilleriya atəşinə tutulub.



AZƏRTAC-ın cəbhə bölgəsinə ezam olunmuş müxbiri Ağcabədi rayonunun Hacılar kəndinə gedərək sakinlərlə həmsöhbət olub. Kənd sakini Elçin Abbasov bildirib ki, düşmənin artilleriya atəşi nəticəsində sakinlərə məxsus yaşayış evlərinə, yardımçı binalara, təsərrüfatlara ziyan dəyir. Lakin bu, sakinlərin əhvali-ruhiyyəsinə təsir etmir. Hər kəs ordumuza güvənir, qələbənin yaxında olacağına inanır: “Hər gün kəndimiz atəşə tutulur. Bu gün səhər atılan mərmilər mənim, qardaşımın, bacımın və qonşumuzun evinə ziyan vurub. Lakin kəndimizdə həyat öz axarı ilə davam edir. Hər kəs öz işindədir”.

Kamran İsmayılovun evinə və həyətinə bir neçə mərmi düşsə də, o, evini tərk etmir. “Bu günədək mənim həyətimə 3 mərmi düşüb. Səhər saatlarında mal-qaraya ot verən zaman kəndimiz yenə atəşə tutuldu. Mərmilərdən biri də mənim evimin üstünə düşərək partladı. Bütün bunlar ermənilərin vəhşiliyinin, barbarlığının göstəricisidir. Döyüş meydanında ordumuzun qarşısında tab gətirə bilmirlər. Əvəzinə dinc sakinləri atəşə tuturlar”, - deyə o, qeyd edib.

Məhəbbət Abbasov isə deyib: “Bu gün səhər düşmənin atəşindən qardaşımın evinə də ziyan dəyib. Görürsünüz, mərmi həyətə düşüb, ev, yardımçı bina nə vəziyyətdədir. Çardaq aşıb, hasar uçub. Lakin düşmənin insanlığa sığmayan bu əməlləri bizi qorxutmur. Çünki biz öz torpağımızdayıq, kəndimizdəyik. Hər zaman ordumuzun arxasındayıq. Əgər ehtiyac olarsa, mən də bu yaşımda düşmənə qarşı savaşa hazıram”.

❖ ❖ ❖

Ermənistan silahlı qüvvələrinin bölmələri Azərbaycan rayonlarının ərazisini atəşə tutmaqda davam edirlər.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, hazırda düşmən bölmələri Gorus rayonu tərəfdən Qubadlı rayonunun ərazisini artilleriya atəşinə tutur.

Bölmələrimiz tərəfindən adekvat cavab tədbirləri görüləcək.

## Cəbrayıl rayonunun işğaldan azad olunan Xudafərin kəndi



**Azərbaycan Respublikasının Müdafiə Nazirliyi Cəbrayıl rayonunun işğaldan azad olunan Xudafərin kəndindən videoreportaj yayımlayıb.**







## Ermənistan silahlı qüvvələrinin təcavüzü nəticəsində həlak olan məktəblilər




Ermənistan silahlı qüvvələrinin təcavüzü nəticəsində sentyabrın 27-dən oktyabrın 30-dək 9 məktəbli həlak olub.

Təhsil Nazirliyindən AZƏRTAC-a bildirilib ki, Tərtər rayonunun Kəbirli kəndinə raket atılması nəticəsində 2004-cü il təvəllüdlü Orxan İsmayılzadə həlak olub. Orxan rayonun Xoruzlu kənd tam orta məktəbində 10-cu sinifdə təhsil alırdı.

Naftalan şəhərinin atəşə tutulması nəticəsində həlak olan 2007-ci il təvəllüdlü Şəhriyar Qurbanov Z.Rüstəmov adına Qaşaltı Qaraqoyunlu kənd tam orta məktəbinin 7-ci və onun əmisi qızı, 2006-cı il təvəllüdlü Fidan Qurbanova isə həmin məktəbin 9-cu sinif şagirdi idi. Ağcabədi rayonunun R.Quliyev adına Taynaq kənd tam orta məktəbinin 9-cu sinif şagirdi Fərid İsgəndərov da düşmən təxribatının qurbanı olub.

Gəncə şəhərinə raket atılması nəticəsində K.D.Uşinski adına 29 nömrəli tam orta məktəbin 10-cu sinif şagirdi Nigar Əsgərova, 7-ci sinif şagirdi Artur Mayakov, 6-cı sinif şagirdi Orxan Xəlilli, 1-ci sinif şagirdi Məryəm Xəlilli həlak olublar. Bərdə rayonunun Qarayusifli kənd tam orta məktəbinin 2-ci sinif şagirdi Aysu İsgəndərova da düşmən təxribatına qurban gedib.

Xatırladaq ki, Ermənistan silahlı qüvvələrinin Azərbaycanın dinc əhalisinə təcavüzü, müxtəlif şəhər və rayonlara raket zərbələri endirməsi nəticəsində 16 nəfər məktəbli xəsarət alıb və 50-dək təhsil müəssisəsinə zərər dəyib.

## Ermənistan ölkəmizə qarşı növbəti ekoloji terror aktları törədib

**Ermənistan silahlı qüvvələri humanitar atəşkəs rejimini kobudcasına pozaraq Azərbaycan əhalisinin sıx yaşadığı məntəqələri, mülki obyektləri, o cümlədən fərdi və çoxmənzilli yaşayış binalarını, təsərrüfatları ağır artilleriya qurğularından və raketlərdən atəşə tutmaqla yanaşı, ekoloji terror əməllərini də davam etdirir.**

Fövqəladə Hallar Nazirliyindən (FHN) AZƏRTAC-a bildiriblər ki, ötən gün döyüş bölgəsindən kənarda yerləşən Göygöl rayonunun ərazisinin Ermənistan silahlı qüvvələrinin ağır artilleriya qurğularından atəşə tutulması səbəbindən yanğın baş vermiş meşəlik ərazi oktyabrın 30-da səhər saatlarından da yenidən mərmi atəşlərinə məruz qalıb və nəticədə yanğın başlayıb.

Həmçinin Goranboy rayonunun ərazisinin düşmən tərəfindən ağır artilleriya qurğularından atəşlərə məruz qalması nəticəsində də meşəlik zonada yanğın baş verib. Yanğınların söndürülməsi üçün FHN-in Dövlət Yanğından Mühafizə Xidmətinin müvafiq qüvvələri cəlb olunub, bu istiqamətdə təxirəsalınmaz tədbirlər davam etdirilir. Əlavə məlumat veriləcək.

Qeyd edək ki, Fövqəladə Hallar Nazirliyi hazırda gücləndirilmiş iş rejimində fəaliyyət göstərir. Baş verən hər hansı fövqəladə hadisə ilə əlaqədar nazirliyin 112 - “Qaynar” telefon xəttinə dərhal məlumat verilməsi xahiş olunur.



# Arxa cəbhə



## Daha 4 rayonda şəhid ailələri və Qarabağ müharibəsi əlillərinə 22 ev verilib





**Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun möhtəşəm zəfərlərlə şanlı tarix yazdığı bu günlərdə şəhid ailələri və Qarabağ müharibəsi əlillərinin mənzil və fərdi evlə təminat proqramı da davam edir.**

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən bu dəfə Zərdab, İmişli, Göyçay və Kürdəmir rayonlarında yeni inşa olunmuş 22 fərdi yaşayış evi şəhid ailələri və Qarabağ müharibəsi əlillərinə təqdim edilib.

Zərdabın Çallı kəndində keçirilən tədbirdə Nazirliyin tabeliyindəki Sosial Xidmətlər Agentliyinin sədri Vüqar Behbudov qeyd edib ki, son bir ay ərzində Silahlı Qüvvələrimizin böyük Qələbələr əldə etməsi, qısa müddətdə artıq bir sıra yurd yerlərimizin işğaldan azad edilməsi Ordumuzun gücünü, qüdrətini bir daha nümayiş etdirir. İşğaldan azad edilən ərazilərimizdə Azərbaycan bayrağı qaldırılır və bu, bütün xalqımızda sonsuz qürur hissləri oyadır.

Bildirilib ki, ölkəmizin ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi uğrunda şəhid olmuş qəhrəman Vətən övladlarının ailələrinin, bu döyüşlərdə sağlamlıqlarını itirmiş vətəndaşların sosial müdafiəsi də daim dövlətin diqqətindədir. 2020-ci ildə şəhid ailələri və müharibə əlillərinə rekord sayda - azı 1500 mənzil və fərdi ev verilməsi nəzərdə tutulub ki, təqdim edilən 22 fərdi ev (o cümlədən Zərdabda 7, İmişlidə 4, Kürdəmirdə 7, Göyçayda 4 ev) də daxil olmaqla, onlardan artıq 710 mənzil və fərdi ev artıq verilib. Digər evlər, mənzillər də ilin sonunadək veriləcək. Ümumilikdə ötən dövrdə 8298 mənzil və fərdi ev bu kateqoriyadan olan vətəndaşlara təqdim edilib.

Çıxış edən şəhid ailələri və müharibə əlilləri göstərilən yüksək diqqət və qayğıya, bu gün isə fərdi evlərlə təmin olunduqlarına görə Prezident İlham Əliyevə dərin minnətdarlıqlarını bildiriblər. Onlar Ordumuzun Qələbələrindən, torpaqlarımızın işğaldan azad edilməsindən, düşmənə sarsıdıcı zərbələr vurulmasından fərəh hissi keçirdiklərini, şəhidlərimizin qisasının düşməndən layiqincə alındığını vurğulayıblar. İşğal altında olan digər torpaqlarımızın azad ediləcəyi günün də uzaqda olmadığına əminliklərini ifadə ediblər.

## Babək rayon sahibkarları əsgərlərə sovqat aparıblar

Muxtar respublikada xalq-ordu birliyinə nümunə olaraq Babək rayonu Şəkərabad kəndinin sakinləri və sahibkarları tərəfindən ərazidəki hərbi hissəyə sovqat aparılıb.

AZƏRTAC xəbər verir ki, əsgərlərlə görüşdə xalqımızın ordumuza daim dəstək göstərərək onların yanında olduğu bildirilib.

Vurğulanıb ki, hazırda Qarabağ uğrunda apardığımız Vətən müharibəsində ordumuz tərəfindən uğurlu əks-hücum əməliyyatları davam etdirilir. Hər gün yeni yaşayış məntəqələri və yüksəkliklər igid əsgərlərimiz tərəfindən azad olunur.

Sonra gətirilən 125 kiloqram ət, 570 kiloqram kartof, 300 kiloqram soğan və digər ərzaq məhsulları hərbi hissəyə təhvil verilib.



## Azərbaycanın neft və qaz kəmərlərini hədəfə almaq Ermənistanı beynəlxalq təzyiqə məruz qoya bilər

### İşğalçılar hətta hər an kömək istədikləri Rusiyaya neft daşıyan boru xəttini də hədəfə alırlar

**Erməni vandalları törətdikləri əməllər üçün heç bir məsuliyyət daşımayaraq Azərbaycanın yaşayış məntəqələrini, o cümlədən infrastruktur obyektlərini atəşə tuturlar. Onlar odla oynamaqdan çəkinməyərək dəfələrlə Mingəçevir İstilik Elektrik Stansiyasını, neft və qaz kəmərlərimizi hədəfə alıblar.**

Ermənilər atdıqları raketlərdən birini də Xızı rayonuna tuşlamışdılar, baxmayaraq ki, bura cəbhədən xeyli uzaqda yerləşən ərazidir.

Müəyyənləşdirilmişdir ki, raket 300 kilometr radiusda hədəfləri vurmaq imkanına, 250-280 kilometr məsafədə uçuş qabiliyyətinə malikdir. O, Xızı rayonunun Sitalçay qəsəbəsi ərazisində havada zərərsizləşdirilmiş və şumlanmış əkin sahəsinə düşərək üç hissəyə bölünmüşdür. Xoşbəxtlikdən heç kim xəsarət almamışdır.

Lakin məsələnin digər vacib bir tərəfi odur ki, buradan cəmi 250 metr aralıda Azərbaycan neftini Rusiyaya, Qara dəniz sahilinə daşıyan Şimal İxrac Boru Kəməri (ŞİBK) - Bakı-Novorossiysk marşrutu keçir.

Xatırladaq ki, Azərbaycan Bakı-Novorossiysk xətti ilə 1997-ci ildən neft nəql edir. Uzaq məsafə qət edən kəmərin 231 kilometri Azərbaycanın ərazisindən keçir. ŞİBK-in sutkalıq ötürücülük qabiliyyəti 105 min bareldir.

Əvvəlki illərdə kəmərə BP şirkəti əməliyyatçılıq etmiş, sonra operatorluq SOCAR-a (Azərbaycan Respublikası Dövlət Neft Şirkəti) keçmişdir. SOCAR bu kəmərə dənizdəki və qurudakı yataqlardan özünün çıxardığı, eləcə də birgə müəssisələri ilə hasil etdiyi nefti vurur.

Energetika Nazirliyinin məlumatına görə, 2019-cu ildə Bakı-Novorossiysk kəməri ilə 824,4 min ton neft nəql edilib.

ŞİBK də erməni vandallarının hədəfindədir. Onlar neft və qaz kəmərlərinə atəş açmaqla təkcə Azərbaycanı təhlükə qarşısında qoymur, eyni zamanda, həmin layihələrdəki tərəfdaşların hamısına zərbə endirməyə cəhd edirlər. Ermənilər bu və digər layihələrə vəsait yönəltmiş səhmdarlar, istehsalçı, istehlakçı və tranzit ölkələr qarşısında öz mənfur niyyətlərinə, cinayətkar əməllərinə görə cavabdehlik daşıdıqlarını birmənalı olaraq dərk etməlidirlər.

Təsadüfi deyil ki, Prezident İlham Əliyevin Rusiyanın "İnterfaks" agentliyinə müsahibəsində dövlətimizin başçısına verilən suallardan biri ermənilərin bu ağılsız hərəkətinin Azərbaycan neftinin və qazının dünya bazarına çatdırılması üçün hansı riskləri yarada biləcəyi ilə bağlı olmuşdur.

Prezident demişdir: "Əgər onlar vəd etdiklərini reallaşdıra bilsələr, konkret olaraq, Səngəçal terminalını və ya bizim neft və qaz kəmərlərimizi bombalaya bilsələr, bu, əlbəttə, risklərlə bağlı olacaq. İndiki halda düşünürəm ki, onları qınayacaqlar, çünki bu neft və qaz əsasən avropalı istehlakçılara lazımdır. Sirr deyil ki, Azərbaycandan çəkilən qaz kəməri müəyyən dərəcədə, çox yox, müəyyən dərəcədə bəzi Avropa ölkələrinin enerji təhlükəsizliyinə şərait yaradır və yaradacaq".

Bu gün Avropa İttifaqının üzvü olan bir sıra ölkələr özlərinin ehtiyaclarının təxminən 40-50 faizini Azərbaycan nefti hesabına təmin edirlər. Odur ki, bu neft-qaz kəmərləri ilə bağlı bir hadisə baş versə, Ermənistan ciddi beynəlxalq təzyiqlə üzləşəcək.

Bununla belə, vandallar bəd əməllərini dayandırmırlar. Prezident həmin sualı cavablandırarkən daha bir mühüm məqama toxunmuşdur: "Onlar Bakı-Novorossiysk neft kəmərini bombalamağa cəhd göstərmişdilər. Bu neft kəməri Azərbaycan ilə Rusiyanı bağlayır. Həmin Rusiyanı ki, Ermənistan ondan həmişə hansısa xüsusi münasibətlər tələb edir, əvəzində heç nə vermədən. Heç nə. Əsla. İstər tarixi baxımdan, istər beynəlxalq arenada dəstək mənasında. Əlbəttə, indi Sorosun komandasından başqa bir əməl gözləmək çətindir. Buna görə də Mingəçeviri, elektrik stansiyasını bombalamağın məqsədi Azərbaycanın enerji sistemini dağıtmaqdır. Bu, əlbəttə, müəyyən dərəcədə təsir göstərər, lakin biz artıq şaxələnmiş enerji təchizatı şəbəkəsi, yeni elektrik stansiyalarını yaratmışıq. Ona görə də bu, məhz erməni tərəfin yırtıcı mahiyyətini göstərir".

Prezidentin belə əsaslı və kəskin sözlərindən sonra şərhə əlbəttə, heç bir ehtiyac qalmır. Budur Ermənistanın hərbi-siyasi rəhbərliyinin siması, erməni işğalçıların iç üzü!

*Flora SADIQLI,*
*"Azərbaycan"*



## Darıxma Laçın, az qalıb

**Uzun illərdən bəri bu tarixi məqamı necə həsrətlə gözləmişik, ilahi! Sınmışıq, əzilmişik, için-için sızlamışıq, odlara bürünüb qovrulmuşuq. Amma bu ötən 30 ildə ürəyimizdəki ümid qığılcımları bir an da sönməyib.**

Prezidentimiz, Ali Baş Komandanımız, bütün dünyanı heyrətə qoyan ər oğlu ər İlham Əliyevin müdrik siyasəti, qəhrəman sərkərdə məharəti ilə on milyonluq xalq bir anın içində yumruğa döndü. İçimizdəki ümid qığılcımları vulkana çevrilib alov püskürdü. Doğma Qarabağımızı 30 ildən bəri işğalda saxlayan mənfur düşmənlərimizə nifrətlə düyünlənən bu yumruq indi bütün cəbhəboyu onların başında ildırım kimi çaxır.

Düşmən arxasına baxmadan qaçır. Həm də havadarlarının səxavətlə hədiyyə etdiyi ağır döyüş texnikasını, silah-sursatını cəbhə xəttində qoyub qaçır. Azərbaycan əsgərinin qəhrəmanlığından doğan bu mənzərəni televiziya ekranlarından qürurla seyr edir, uzun illərin məhrumiyyətlərini, ağrı-acısını unuduruq.

Şanlı Ordumuzun zəfər yürüşü isə uğurla davam edir. Müqəddəs bayrağımız bir-birinin ardınca düşmən işğalından azad edilən kənd və şəhərlərimizdə dalğalanır. İndi azadlıq sırası doğma Laçında, Şuşada, Xankəndidə, Kəlbəcərdə, Ağdamdadır...

Mərd, cəsur, vətən torpaqlarının bütövlüyünü öz varlığından üstün tutan Laçın camaatı uşaqdan-böyüyə, qadından-kişiyə hamısı bu gün QƏLƏBƏ təşnəsidir. Müzəffər Ordumuz indi doğma Laçınımızın beş addımlığındadır. 30 ildən bəri işğal altında qalan, gözləri yol çəkən Laçının azad edilməsi an məsələsidir. Gün kimi aydındır ki, Laçına tezliklə yenidən və həmişəlik qovuşacağıq. O yerlərin uca dağları, gen dərələri, gur çayları, durna gözlü bulaqları, sıx meşələri, can dərmanı olan saf suları, təmiz havası üçün çox darıxmışıq.

Artıq QƏLƏBƏnin addım səsləri eşidilir. Bir az da döz, Laçınım, gəlirik! Torpağına qarışmağa, çəmənində göyərməyə, yamacında çiçək olub açmağa, səni yenidən qurub-yaratmağa, gerçək bir cənnətə döndərməyə gəlirik! Bizi ürəyimizin bu ali istəyinə qovuşduran şanlı Ordumuza, qətiyyətli Ali Baş Komandanımız İlham Əliyevə eşq olsun!

Son olaraq bir məsələni də qeyd etmək istəyirik. Etiraf edək ki, unutqan xalqıq. Amma bundan sonra səhv etməyə, başımıza gətirilənləri, erməni məkrini, qanlı xəyanətləri unutmağa haqqımız olmamalıdır. Övladlarımıza, gələcək nəslə ciddi problemlər qoymamağa çalışmalıyıq. Erməni faşistlərinin cinayətlərinin qanlı nəticələrini, Tovuzda, Gəncədə, Ağdamda, Tərtərdə, Füzulidə, Bərdədə, digər bölgələrdə raket və mərmilərlə dağıdılan evlərin, məktəblərin, uşaq bağçalarının bəzilərini bərpa etmədən görk və sübut kimi saxlamaq lazımdır. Qoy, onlar millətimizin qan yaddaşına çevrilsin. Çevrilsin ki, gələcək nəsillər baxanda ermənilərin faşist xislətini görsünlər, onların bəşəriyyətin üz qarası olduğunu görüb anlasınlar, dostla dost, düşmənlə düşmən olsunlar.

*Ramiz CƏBRAYILOV,*
*Laçın rayon sakini*

## Lənkəranda kənd təsərrüfatı məhsullarının istehsalı 6,1 faiz artıb

**Lənkəran rayonunda kənd təsərrüfatı bitkilərinin yığımı davam edir.**

Bu ilin doqquz ayında sahələrdən qarğıdalı da daxil olmaqla 4296,5 ton və ya ötən ilin müvafiq dövrünə nisbətən 19,5 faiz çox dənlilər və dənli paxlalı bitkilər, 4150,6 ton (9,6 faiz çox) kartof, 73796,2 ton (8,5 faiz çox) tərəvəz, 4384,3 ton (21,1 faiz çox) meyvə və giləmeyvə, 193,2 ton (13,6 faiz az) yaşıl çay yarpağı yığılıb.

Bu barədə Lənkəran Rayon Statistika İdarəsindən AZƏRTAC-a məlumat verilib.

Bildirilib ki, ötən ilin müvafiq dövrü ilə müqayisədə rayonda kənd təsərrüfatı məhsullarının istehsalı 6,1, o cümlədən bitkiçilik məhsullarının istehsalı 12,1 faiz artıb.

## KOBİA-nın rəhbərliyi bərdəli sahibkarlarla görüşmüşdür

**Ermənistan silahlı qüvvələrinin Bərdə şəhərini raket atəşinə tutması nəticəsində sahibkarlıq subyektlərinə də ciddi ziyan dəyib.**

Kiçik və Orta Biznesin İnkişafı Agentliyindən (KOBİA) bildirilib ki, sahibkarlara dəymiş zərərlə yerində tanış olmaq məqsədilə oktyabrın 30-da qurumun idarə heyətinin sədri Orxan Məmmədov, Dövlət Vergi Xidmətinin Baş idarə rəisi, Vergi ombudsmanı Elçin Məmmədov və hər iki qurumun məsul əməkdaşları Bərdə şəhərində olublar.

Sahibkarlarla keçirilmiş görüşdə qeyd edilib ki, oktyabrın 28-də Ermənistan silahlı qüvvələrinin Bərdənin əhalinin sıx hərəkətdə olduğu və ticarət obyektlərinin yerləşdiyi ərazini raket atəşinə tutması nəticəsində ilkin məlumatlara əsasən, ticarət, ictimai iaşə və xidmət sahələrində fəaliyyət göstərən 30-a yaxın sahibkarlıq subyektinə ziyan dəyib. Bildirilib ki, Ermənistanın Bərdə şəhərinə hərbi təxribatı nəticəsində həlak olanlar arasında sahibkarlar da var. Hadisə baş verdiyi gündən KOBİA-nın yerli nümayəndələri tərəfindən sahibkarlara dəymiş ziyanın müəyyənləşdirilməsi və onlara ilkin dəstəyin göstərilməsi üçün müvafiq tədbirlər görülür.

Ümumilikdə isə indiyədək Kiçik və Orta Biznesin İnkişafı Agentliyinə Ermənistanın hərbi təxribatı nəticəsində heyvandarlıq, əkinçilik, ticarət, ictimai iaşə və istehsal sahələrində fəaliyyət göstərən 300-dək sahibkarlıq subyektinə ziyanın dəyməsi barədə məlumatlar daxil olub. Müraciətlər əsasən, ölkənin 9 şəhər və rayonunu, o cümlədən Gəncə və Naftalan şəhərlərini, Ağdam, Füzuli, Tərtər, Beyləqan, Bərdə, Cəbrayıl və Ağcabədi rayonlarını əhatə edir. Ermənistan silahlı qüvvələrinin cəbhəyanı bölgələrlə yanaşı, cəbhədən kənarda yerləşən rayon və şəhərləri atəşə tutması nəticəsində sahibkarlıq subyektlərinin fəaliyyəti ya tamamilə dayanıb, ya da onlar əhəmiyyətli dərəcədə maliyyə itkiləri ilə üzləşiblər. İlkin hesablamalara görə, sahibkarlara dəymiş ziyan milyonlarla manat həcmindədir.

Ermənistanın hərbi təxribatı ilə bağlı sahibkarlıq subyektlərinə dəymiş ziyanın müəyyənləşdirilməsi məqsədilə KOBİA tərəfindən müvafiq məlumatların toplanılması və emalı, mümkün olduqda dəymiş zərərin yerində dəqiqləşdirilməsi istiqamətində tədbirlər davam etdirilir.



## Ağsuda 9 yaşayış məntəqəsini birləşdirən yollar yenidən qurulub

**Dövlət başçısının tapşırıq və sərəncamlarına əsasən, beynəlxalq əhəmiyyətli yolların inşası ilə yanaşı, yeni kənd yollarının çəkilməsi, mövcud yolların yenidən qurularaq müasir səviyyəyə çatdırılması istiqamətində çox mühüm layihələr icra olunur.**

Ağsu rayonunun Ağsu-Ağarx-Rəhimli-Qaradağ marşrutu üzrə 9 yaşayış məntəqəsinə gedən avtomobil yollarının yenidən qurulması da bu tədbirlər sırasındandır.

Başlanğıcını Ağsu şəhərindən götürən Ağsu-Ağarx-Rəhimli-Qaradağ avtomobil yolunun ümumi uzunluğu 39 km-dir. Yolun Ağsu-Qaradağ hissəsi 20,3 km, bu yoldan ayrılan və Qaradağlı, Rəhimli, Şahbəyli, Qarabağlı, Bozovand, Ağarx, Parakənd, Maşadqanlı, Ülgüc kəndlərinin giriş yolları isə 18.7 km təşkil edir.

Yenidənqurma işləri çərçivəsində yararsız örtük mexanizmlə sökülüb, torpaq yatağının yararsız hissələri ekskovatorla qazılıb çıxarılıb və ərazidən daşınıb, torpaq yatağının yerin təbii relyef səviyyəsindən qaldırılaraq inşası, qazılmış hissələrin yenidən bərpası və yolun normativ eninin alınması üçün genişləndirmə işlər görülüb. Torpaq işlərinə paralel olaraq yol boyu uzunluğu 14.2 m, eni isə 5.8 m olan mövcud körpünün hərəkət hissəsi təmir edilib, məhəccərlər yenisi ilə əvəz edilib, həmçinin 1 nöqtədə 10 metr uzunluğunda dördbucaqlı su keçidi, mövcud suötürücü borular və boruların başlıq hissələri dağıldığı üçün 193 nöqtədə yeni suötürücü borular inşa edilib.

Bunun ardınca "İnşaat Norma və Qaydaları"nın tələblərinə əsasən, avtomobil yollarına 2 laydan ibarət yeni asfalt-beton örtüyünün döşənməsi işləri aparılıb. Bunun üçün iri və xırda dənəli asfalt-beton qarışıqlarından istifadə olunub.

Ağsu rayonunun Ağsu-Ağarx-Rəhimli-Qaradağ marşrutu üzrə 9 yaşayış məntəqəsinə gedən avtomobil yollarının yenidən qurulması yol boyu yaşayan minlərlə vətəndaşın rayon mərkəzinə rahat gediş-gəlişini təmin etməklə sözügedən kəndlər arasında nəqliyyat əlaqəsini xeyli yaxşılaşdıracaq, eyni zamanda, kənd təsərrüfatı və turizmin inkişafına gətirib çıxarmaqla yol boyu yaşayan əhalinin sosial rifah halına müsbət təsir etmiş olacaq.

## İsmayıllıda 10,2 min hektarda payızlıq taxıl əkilib

**İsmayıllı rayonunda payızlıq taxıl səpini davam edir və artıq 10 min 200 hektarda əkin aparılıb.**

Rayon Dövlət Aqrar İnkişaf Mərkəzindən AZƏRTAC-a bildirilib ki, cari mövsümdə 30 min hektarda payızlıq taxıl əkini nəzərdə tutulub. Artıq 29 min hektarda şum çıxarılıb və bu iş davam etdirilir.

Əkində yüksək kondisiyalı toxumlardan istifadə olunur, səpin fosforlu gübrə ilə birlikdə aparılır. Fermerlər və fiziki şəxslər payızlıq əkinin aqrotexniki qaydada aparılması üçün maksimum səy göstərirlər. Bu mühüm kampaniya hər yerdə mütəxəssislərin nəzarəti altında davam etdirilir. Hazırda hər gün sahələrə 100-dək texnika çıxarılır. Rayonun şimal dağlıq zonasında yerləşən Sulut və Xankəndi kəndlərində artıq əkin başa çatıb. Qoşakənd, Quşencə, Təzəkənd ərazilərində isə bu iş yaxın günlərdə yekunlaşacaq.

## Naxçıvanda könüllülər üçün fərdi inkişaf təlimi təşkil olunub

**Naxçıvan Muxtar Respublikasının Gənclər Fondu tərəfindən Gənclər Mərkəzində könüllülər üçün fərdi inkişaf təlimi təşkil olunub.**

AZƏRTAC xəbər verir ki, təlimin əvvəlində çıxış edən fondun Gənclər təşkilatları və gənclərlə iş şöbəsinin mütəxəssisi Leyla Hacıyeva dövlət başçısının 2020-ci ili ölkəmizdə "Könüllülər ili" elan etməsinin Naxçıvanda da könüllülük hərəkatının inkişafına təkan verdiyini bildirib. Belə ki, il boyunca Naxçıvanda könüllülük fəaliyyəti ilə bağlı silsilə tədbirlərin keçirilməsi üçün tədbirlər planı hazırlanıb. Artıq bu istiqamətdə fond tərəfindən bir sıra işlər görülüb. Vurğulanıb ki, fond könüllülərin tədbirlərə yüksək səviyyədə hazırlanması ilə yanaşı, onların peşəkar inkişafını da hər zaman diqqətdə saxlayır. Buna misal kimi müxtəlif istiqamətlərdə təşkil edilən təlimləri, fərqli mövzuda seminarları göstərmək olar. Bu cür tədbirlərdə onlar yeni məlumatlar qazanaraq fikir mübadiləsi aparmaq imkanı əldə edirlər.

Sonra təlimə start verilib. Təlim psixoloq Əsmər Rzayevanın təqdimatında "Ünsiyyətin həyatımızda rolu", "Yaşlılarla ünsiyyət", "İş yerində ünsiyyət" mövzularını əhatə etməklə keçirilib. Təlim müddətində iştirakçıların sualları cavablandırılıb.

# Azərbaycanın haqq savaşı xarici mətbuatda



Misirin “Youm7” saytı Azərbaycan Prezidenti İlham Əliyevin Rusiyanın İnterfaks agentliyinə müsahibəsindən əsas məqamlara geniş yer ayırıb.

AZƏRTAC-a istinadla yayılan xəbərdə qeyd olunur ki, dövlətimizin başçısı Ermənistanın döyüş meydanında 5 mindən çox itki verdiyini bildirib. Bununla yanaşı, Prezident İlham Əliyev cəbhədə məğlub olan erməni silahlı qüvvələrinin dinc insanları və mülki obyektləri hədəf aldığını vurğulayaraq deyib: “Bilirsiniz ki, dünən kasetli raketlərlə atəşlər nəticəsində Bərdədə dörd dinc vətəndaş, o cümlədən 7 yaşlı qız həlak olub. Bərdə münaqişə zonası deyil. Yəni bu, Vaşinqtonda razılaşdırılmış atəşkəsin kobud şəkildə pozulmasıdır. Bundan əvvəl Moskvada razılaşdırılmış atəşkəs elə ertəsi gün ermənilər tərəfindən Ermənistan ərazisindən Gəncəyə ballistik raket atılması yolu ilə pozuldu. Bunun nəticəsində 10 nəfər həlak oldu. Gəncəyə ballistik raketlərlə ikinci hücum nəticəsində bu dinc şəhərdə daha çox, ümumilikdə isə 30-a yaxın insan həlak oldu... Hərçənd, erməni tərəfin aqressiv davranışı və onların beynəlxalq hüququ kobud şəkildə pozması, Cenevrə konvensiyalarını pozması və hərbi cinayətlər törətməsi, əlbəttə, onların nizamlama məsələsini konkret müzakirə etməyə hazırlaşmasından xəbər vermir. Ona görə ki, dinc şəhərlərə kasetli raketlərlə və döyüş sursatları ilə hücumlar hərbi cinayətdir. Ermənilərin atəşləri nəticəsində bizim 69 dinc vətəndaşımız həlak olub, 300-dən çox adam yaralanıb”.

Portalın xəbərində BMT Təhlükəsizlik Şurası, ATƏT-in Minsk qrupunun həmsədrlərinin fəaliyyəti ilə əlaqədar Azərbaycan Prezidentinin söylədiyi tənqidi sözlər, onun Ermənistan rəhbərliyinin riyakarlığı barədə fikirləri də yer alıb.

❖ ❖ ❖




Moldovanın aparıcı KİV-i Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Bərdə şəhərini raket atəşinə tutması barədə məqalələr yayıb.

AZƏRTAC xəbər verir ki, Moldovanın nüfuzlu “Tribuna”, NOİ.MD, AVA.MD, İPN.MD informasiya portalları Bərdə şəhərinə edilən raket hücumu nəticəsində 20-dən çox mülki vətəndaşın həlak olduğu qeyd edilir.

Məqalələrdə Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəsmi “Instagram” hesabında edilən paylaşımdakı fikirlər yer alıb. Birinci xanıma istinadla vurğulanıb ki, Ermənistan silahlı qüvvələri döyüş əməliyyatları zonasından kənarda yerləşən Bərdə şəhərini raket atəşinə məruz qoyaraq humanitar atəşkəs rejiminin şərtlərini növbəti dəfə kobud şəkildə pozublar.

Həmçinin digər məqalələrdə də Ermənistanın Azərbaycanın yaşayış yerlərini, o cümlədən Bərdəni kasetli raketlərlə atəşə tutmasını pisləyən fikirlər yer alıb.

❖ ❖ ❖




İtaliya Parlamentinin Deputatlar Palatasının Xarici əlaqələr daimi komissiyasının sədri Piero Fassinonun İtaliyanın nüfuzlu beyin mərkəzlərindən olan CeSPI-nin (Centro Studi per Politica Internazionale) internet saytında “Dağlıq Qarabağ: bizə də aidiyyəti olan münaqişə” adlı məqaləsi dərc olunub.

AZƏRTAC xəbər verir ki, italyan parlamentar məqaləsində Avropa ölkələrində sənaye, istehlak və gündəlik həyat üçün tələb olunan neft və qazın nəqlini təmin edən strateji boru kəmərlərinin keçməsi nöqteyi-nəzərindən Qafqaz bölgəsinin əhəmiyyətindən, qloballaşmanın çoxtərəfli idarə edilməsinin tərkib hissəsi olan TAP boru kəmərinin də daxil olduğu “Cənub qaz dəhlizi”nin İtaliya üçün enerji asılılığının şaxələndirilməsi və enerji təhlükəsizliyinin gücləndirilməsi baxımından strateji vacibliyə malik olmasından danışıb. Deputat məqaləsində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin lokal xarakterdən kənara çıxmaq risklərinin olmasını də nəzərə alaraq, prosesin siyasi həllinə nail olmaq və bölgədə davamlı sülh və təhlükəsizliyin əldə olunması üçün Aİ-nin, xüsusilə də Minsk qrupunun üzvü kimi İtaliyanın təcili tədbirlər görməsinin vacibliyini qeyd edib.

İtalyan deputatın məqaləsi ilə bağlı Azərbaycanın İtaliyadakı səfiri Məmməd Əhmədzadə tərəfindən CeSPI-nin redaksiyasına göndərilmiş məktub da qurumun internet səhifəsində yerləşdirilib. Məktubunda diplomat mövzuya göstərilən diqqətə və Qafqaz bölgəsində geosiyasi, eləcə də İtaliyanın maraqları nöqteyi-nəzərindən Azərbaycanın əhəmiyyəti barədə fikirlərə görə təşəkkür edib, eyni zamanda, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bir sıra məqamlara aydınlıq gətirmək istədiyini bildirib.

Diplomat 1988-ci ildə Ermənistan tərəfindən Azərbaycana qarşı ölkəmizin Dağlıq Qarabağ bölgəsinin ilhaqı ilə bağlı irəli sürülmüş ərazi iddiaları və Ermənistanın ölkəmizə qarşı həyata keçirdiyi hərbi təcavüzün ağır nəticələri, o cümlədən ərazilərimizin işğalı, etnik təmizləməyə məruz qalmış 1 milyondan çox azərbaycanlının qaçqın və məcburi köçkünə çevrilməsi, mülki azərbaycanlılara qarşı törədilmiş müharibə cinayətləri, Xocalı soyqırımı barədə məlumat verib. Ermənistanın öz hərbi təcavüzünü ört-basdır etmək üçün işğal olunmuş ərazilərimizdə heç özü tərəfindən belə tanınmamış qeyri-qanuni oyuncaq rejim yaratdığını bildirib. Diplomat beynəlxalq təşkilatlar tərəfindən qəbul edilmiş çoxsaylı sənədlərin, o cümlədən BMT TŞ-nin qətnamələrinin tələblərini qeyd edib, Ermənistanın bu sənədlərə məhəl qoymadığını, 30 ilə yaxın davam edən danışıqlarda məqsədinin sülh prosesini uzatmaq və status-kvonu əbədiləşdirmək olduğunu deyib, son iki il ərzində isə N.Paşinyanın öz zərərli və təxribatçı hərəkət və açıqlamaları ilə danışıqlar prosesini mənasız etdiyini vurğulayıb.

Diplomat 27 sentyabr tarixindən Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi yeni hərbi təcavüz və onun qarşısının alınması və Ermənistanı sülhə məcbur etmək üçün Azərbaycan Ordusunun özünümüdafiə hüququndan istifadə edərək həyata keçirdiyi əks-hücum tədbirləri barədə məlumat verib. Azərbaycan əsgərinin ölkəmizin suveren ərazisində torpaqlarımızı işğalçılardan azad etdiyi üçün mübarizə apardığını, məğlub olduğunu görən Ermənistan silahlı qüvvələrinin isə Azərbaycan mülki əhalisini hədəf götürdüyünü və bunun mülki azərbaycanlı əhali arasında ağır itkilərə səbəb olduğunu bildirib.

Habelə bu günlərdə Ermənistan tərəfindən Azərbaycana qarşı və hazırkı hərbi əməliyyatlarla bağlı saxta və yalan məlumatların yayılması kampaniyasının aparıldığını deyən diplomat bu saxtakarlıqları təkzib edən faktlar barədə danışıb. Eləcə də erməni tərəfinin münaqişəyə dini don geyindirmək cəhdlərinə qarşı da ölkəmizin multikultural və dini tolerantlıq ənənələri və Vatikan və İsrail ilə yaxın əlaqələri barədə məlumat verib. Yalan məlumatları yaymaqda Ermənistanın məqsədinin Azərbaycan ərazilərinin işğalını davam etdirmək və azərbaycanlı məcburi köçkünlərin öz torpaqlarına qayıtmasına mane olmaq olduğunu bildirib.

Diplomat bu münaqişənin həllində İtaliyanın daha fəal rol oynamasını şərtləndirən səbəblərdən yazıb, Minsk konfransının ilk sədri kimi İtaliyanın institusional yaddaşa malik olduğunu, nizamlanmada istinad edilə biləcək Trentino-Alto Adice kimi muxtariyyət modelinə malik olduğunu, İtaliyanın Cənubi Qafqazda maraqları, xüsusilə də Azərbaycanla enerji sektorundan başlayaraq bütün sahələrdə çox sıx əməkdaşlığa malik olduğunu deyib. Azərbaycan və İtaliya arasında Prezident İlham Əliyevin İtaliyaya bu ilin fevral ayında dövlət səfəri vaxtı iki ölkənin hökumət başçıları arasında imzalanmış çoxtərəfli strateji tərəfdaşlığın gücləndirilməsinə dair Birgə Bəyannaməyə əsaslanan strateji tərəfdaşlıq və yaxın dostluq əlaqələrinin olduğunu bildirib. Həmin sənəddə tərəflərin bir-birinin müstəqilliyini, suverenliyini, ərazi bütövlüyünü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinə dəstəyini, dövlətlərarası münasibətlərdə təcavüz aktlarının yolverilməzliyini təsdiq etdiklərini, habelə İtaliyanın Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin Helsinki Yekun Aktının təməl prinsipləri, xüsusilə suverenlik, ərazi bütövlüyü və beynəlxalq sərhədlərin toxunulmazlığı əsasında, BMT və ATƏT-in müvafiq sənəd və qərarlarında təsbit olunduğu kimi sülh yolu ilə nizamlanmasını dəstəklədiyini bildirib.

Diplomatın yazısı ilə aşağıdakı keçiddən tanış olmaq mümkündür:

https://www.cespi.it/it/eventi-note/articoli/nota-dellambasciatore-della-repubblica-dellazerbaigian-italia-se-mammad

❖ ❖ ❖




Perunun nüfuzlu “ATV” telekanalında Azərbaycanın Meksikadakı səfiri Məmməd Talıbovun Ermənistan-Azərbaycan münaqişəsi və Ermənistanın törətdiyi müharibə cinayətləri haqda müsahibəsi efirə gedib.

AZƏRTAC xəbər verir ki, müsahibədə səfir Azərbaycanın Dağlıq Qarabağ və 7 ətraf rayonla birlikdə Peru da daxil olmaqla beynəlxalq ictimaiyyətin bütün üzvləri tərəfindən tanınmış ərazilərinin Ermənistan tərəfindən 30 ilə yaxındır işğal edildiyini və burada yaşayan 1 milyona yaxın soydaşımızın etnik təmizləməyə məruz qoyulduğunu bildirib.

Münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurası tərəfindən qəbul edilmiş müvafiq qətnamələrin Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal edilmiş ərazilərindən çıxarılmasını və məcburi köçkünlərin geri qaytarılmasını tələb etdiyini deyən diplomat, Ermənistanın bu sənədlərin tələblərinə məhəl qoymadığını, Minsk qrupu çərçivəsində aparılan danışıqlarda da qeyri-konstruktiv mövqe tutduğunu və işğal faktını gücləndirməyə çalışdığını qeyd edib.

Təmsilçimiz Ermənistanın son 2 ildəki təxribat xarakterli addımlarının davamlı olaraq 27 sentyabrdan etibarən ölkəmizə qarşı növbəti hərbi təcavüzə cəhd etdiyini, son bir ay ərzində mülki yaşayış məntəqələrini, o cümlədən Tərtər, Mingəçevir, Goranboy, Ağcabədi və sərhədyanı şəhərlərimizi hədəf alması, habelə üç dəfə razılaşdırılmış humanitar atəşkəs rejimini pozaraq Gəncə və son olaraq Bərdə şəhərinə etdiyi hücumlar nəticəsində çoxlu sayda mülki vətəndaşımızın, o cümlədən qadın və uşaqların həlak olduğu barədə məlumat verib. Bildirib ki, hazırda Silahlı Qüvvələrimiz mülki vətəndaşların təhlükəsizliyini təmin etmək, işğalda olan ərazilərimizi azad etmək və BMT TŞ-nin qətnamələrinin yerinə yetirilməsinə nail olmaq üçün gərəkli əks-əməliyyat tədbirləri görür.

Sonda Ermənistan silahlı qüvvələrinin Azərbaycanın suveren ərazilərində qalmasının bölgədə sülh və təhlükəsizliyin təmin edilməsinə başlıca maneə olduğunu deyən səfir, münaqişənin qlobal təhlükəsizlik üçün də təhdid olmaması üçün beynəlxalq ictimaiyyətin beynəlxalq hüququn ərazi bütövlüyü, beynəlxalq sərhədlərin toxunulmazlığı və suverenlik prinsiplərinə sadiq qalaraq səsini ucaltmalı olduğunu, təcavüzkar dövlətdən Azərbaycanın işğal olunmuş ərazilərini tərk etməsini və məcburi köçkünlərin evlərinə qaytarılmasını tələb etməli olduğunu söyləyib.

❖ ❖ ❖




İndoneziya kütləvi-informasiya vasitələri (KİV) Ermənistan ordusunun Azərbaycanın cəbhə bölgəsindən uzaqda yerləşən şəhərlərinə raket hücumu nəticəsində mülki vətəndaşların həlak olmasını və yaralanmasını geniş işıqlandırır.

AZƏRTAC xəbər verir ki, İndoneziyanın portalprobolinggo.pikiran-rakyat.com, minanews.net, viva.co.id saytları və digər KİV Azərbaycanın Ermənistanı Dağlıq Qarabağdan uzaqda yerləşən şəhərlərə raket hücumu nəticəsində 21 nəfərin həlak olmasında günahlandırmasından yazır. Qeyd edilir ki, Azərbaycan Ordusunun Dağlıq Qarabağda apardığı uğurlu hərbi əməliyyatların qarşısında dayana bilməyən Ermənistan, Rusiya və ABŞ-ın vasitəçiliyi ilə əldə edilən humanitar atəşkəsə baxmayaraq, Azərbaycan şəhərlərinə raket hücumlarını davam etdirir. Vurğulanır ki, tərəflər arasında əldə edilən üç humanitar atəşkəs razılaşması məhz Ermənistanın təqsiri üzündən onlar qüvvəyə mindikdən bir neçə dəqiqə sonra pozulub.

Məqalələrdə Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyevə istinadla Ermənistanın kaset bombalarına malik “Smerç” raketləri ilə hücumu nəticəsində çoxsaylı mülki vətəndaşların həlak olduğu qeyd edilir. Azərbaycanın Baş Prokurorluğuna istinadla bildirilir ki, terror aktı nəticəsində əhalinin sıx yaşadığı yaşayış məntəqəsində 21 nəfər həlak olub, daha 70 nəfər yaralanıb.

Bununla yanaşı, Ermənistan Müdafiə Nazirliyinin İranla sərhəddə yerləşən strateji əhəmiyyətə malik Qubadlı rayonunun Azərbaycan Ordusu tərəfindən azad edildiyi barədə məlumatı təsdiq etdiyi də bildirilir. Vurğulanır ki, bu hərbi üstünlük məsələnin diplomatik həll yolunu çətinləşdirə bilər.

Məqalələrdə Dağlıq Qarabağın beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycanın tərkib hissəsi kimi qəbul olunduğu xüsusi qeyd edilir. Bildirilir ki, 1991-1994-cü illərdə birinci Dağlıq Qarabağ müharibəsi zamanı xarici havadarlarına arxalanan Ermənistan Azərbaycanın 20 faiz ərazisini işğal edib. Həmin müharibə nəticəsində 20 mindən çox insan həlak olub, bir milyon azərbaycanlı ata-baba yurdlarından didərgin düşüb.

Xüsusi qeyd edilir ki, Azərbaycan məsələnin Ermənistanın işğal etdiyi ərazilər üzərində nəzarətini saxlayacaq istənilən həll yolunu rədd edir.

❖ ❖ ❖




Özbəkistan “interpress.uz”, “daryo.uz”, “fikr.uz” və “qalampir.uz” portalları Bərdənin kasset bombasına tutulması ilə bağlı özbək və rus dillərində məqalələr çap edib.

AZƏRTAC xəbər verir ki, portallarda Bərdə şəhərinin ermənilər tərəfindən ikinci dəfə “Smerç” kasetli bombalardan atəşə tutulması mənfur qonşularımızın qorxaqlığı kimi dəyərləndirilib. Bildirilib ki, müharibədə uduzan Ermənistan qisasını dinc əhalidən alır. Bununla da erməni hərbçiləri beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il tarixli Cenevrə Konvensiyasını və Əlavə protokollarını, BMT-nin Təhlükəsizlik Şurasının qərar və qətnamələrini kobud şəkildə pozur.

Saytlarda Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tarixi haqqında məlumat verilir, münaqişənin tənzimlənməsi ilə məşğul olan ATƏT-in Minsk qrupunun fəaliyyətsizliyi önə çəkilir.

❖ ❖ ❖



Tacikistanın “avesta.tj” portalı Ermənistan silahlı birləşmələri tərəfindən Bərdə şəhərinin dinc sakinlərin sıx hərəkətdə olduğu və ticarət obyektlərinin kompakt yerləşdiyi əraziyə “Smerç” kaset bombası atması və dinc sakinlərin ölməsi barədə materiallar verib.

AZƏRTAC xəbər verir ki, portalda Ermənistanın dinc əhalin hədəf alması hərbi cinayət kimi dəyərləndirilir. Bildirilir ki, Ermənistanın siyasi-hərbi rəhbərliyi bu cinayətə görə cavab verməlidir.

Qeyd olunur ki, dünya birliyi Ermənistanın bu qanuna zidd hərəkətlərini ittiham etməli, Ermənistanı dayandırmalıdır.

Yazılarda vurğulanır ki, bu tipli bomba və raketlərdən istifadə olunması 1949-cu ildə imzalanmış Cenevrə Konvensiyasına və digər beynəlxalq sənədlərə ziddir.

Bildirilir ki, sentyabrın 27-dən bu günədək Ermənistanın dinc əhaliyə atəş açması nəticəsində 90 adam ölüb, 392 mülki vətəndaş yaralanıb.

❖ ❖ ❖



Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın Bərdə şəhərində yaşayış məntəqələrinə qarşı kasetli bombalardan istifadə edilib.

AZƏRTAC xəbər verir ki, ABŞ-ın “VICE News” kanalının jurnalistləri oktyabrın 28-də bu cür raketlərin çoxsaylı istifadəsini təsdiqləyiblər.

Bildirilib ki, hücumdan bir neçə saat sonra aparılan araşdırma zamanı “Amnesty International”ın hərbi mütəxəssisi Brayn Kasner və BMT-nin keçmiş hərbi müşaviri Mark Qarlasko “Smerç” raketinin qalıqlarını aşkar ediblər.

Qeyd edilib ki, Azərbaycan rəsmilərinin məlumatına əsasən, evlərin həyətlərinə düşən raket mərmiləri 21 nəfərin həyatına son qoyub. Bu, ötən aydan Qarabağda döyüşlərin yenidən başlamasından sonra ən çox mülki şəxsin ölümü ilə nəticələnən hücumdur. Bərdə Rayon Mərkəzi Xəstəxanasında olan jurnalistlər burada mülki geyimdə olan və partlayış xəsarətləri almış 12 nəfərin meyitini müşahidə ediblər.

❖ ❖ ❖




Fransanın “France 24” telekanalı və məşhur “Yahoo.com” saytında guya Xankəndi şəhərinin Azərbaycan Ordusu tərəfindən raket atəşinə tutulması ilə bağlı məlumat dərc olunub.

AZƏRTAC xəbər verir ki, hər iki internet resursunda dərc olunan məlumat Ermənistan silahlı qüvvələrinin Bərdə şəhərində törətdiyi terror hadisəsi zamanı çəkilən foto ilə birlikdə yayımlanıb.

Belə ki, saxta xəbər yaymaqla kifayətlənməyən saytlar ermənilərin Bərdə şəhərində törətdiyi terror aktından sonra çəkilən fotonu Dağlıq Qarabağda lentə alınmış foto kimi təqdim edib.

Daha sonra azərbaycanlı oxucuların, izləyicilərin çoxsaylı şikayət və etirazlarından sonra hər iki sayt fotonu xəbərdən çıxarıb.

❖ ❖ ❖




Xaricdə fəaliyyət göstərən Azərbaycan diasporunun təmsilçiləri Ermənistanın ölkəmizə qarşı hərbi təxribatlar törətməsi nəticəsində baş verən proseslər barədə yaşadıqları ölkələrin kütləvi informasiya vasitələrini məlumatlandırmaqda davam edirlər.

Diasporla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a verilən məlumata əsasən, Polşadakı Azərbaycan Evinin rəhbəri Lalə Zeynalova bu ölkənin ingilisdilli “ANews” televiziyasına və “Wnet” radiosuna müsahibəsində Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasətindən, bununla əlaqədar Katovitsedə yaşanan insidentdən danışıb.

Azərbaycan Evinin rəhbəri qeyd edib ki, sentyabrın 27-dən işğalçı Ermənistanın bütün cəbhəboyu ölkəmizə qarşı genişmiqyaslı hücum etməsinə, təmas xəttindən uzaqda yerləşən mülki infrastrukturu ağır artilleriya atəşinə tutmasına cavab olaraq Azərbaycan Ordusu əks-hücuma keçib və 27 il işğal altında qalan torpaqlarımızı azad etməyə başlayıb.

Soydaşımız xatırladıb ki, oktyabrın 10-da Rusiyanın vasitəçiliyi ilə tərəflər arasında əldə olunan humanitar atəşkəs Ermənistan tərəfindən 3 dəfə kobud şəkildə pozulub. Cəbhə zonasından kənarda yerləşən Gəncə şəhərinin yaşayış massivinə raket zərbələri endirilib və mülki şəxslərə qarşı amansız terror aktları həyata keçirilib. Nəticədə 25 nəfər həyatını itirib, çox sayda insan yaralanıb. Onların arasında uşaqlar, yeniyetmələr və hər iki valideynini itirən körpələr var. “Dünya ictimaiyyətini və beynəlxalq təşkilatları təcavüzkar siyasətini dayandırması, Azərbaycanın işğal olunmuş ərazilərini dərhal azad etməsi, beynəlxalq hüquq normalarına uyğun davranması üçün Ermənistan hökumətinə təsir göstərməyə çağırırıq”, - deyə L.Zeynalova vurğulayıb.

“Wnet” radiosunda Ermənistanın Polşadakı səfiri Samvel Mkrtıçyana opponentlik edən Azərbaycan Evinin rəhbəri bildirib ki, Katovitse şəhərindəki teatr binasının qarşısında azərbaycanlıların icazəli aksiyası zamanı ermənilərin təxribat törətməsi Ermənistanın təcavüzkar və terrorçu siyasətinin növbəti təzahürüdür.

❖ ❖ ❖

Azərbaycanın Birləşmiş Ərəb Əmirliklərindəki səfiri Mahir Əliyev “Əl-Ərəbiyə” televiziya kanalında müsahibə verib. Proqramın əvvəlində aparıcı Azərbaycanla Ermənistan arasında Dağlıq Qarabağda döyüşlər getdiyini xatırladıb, regionun Azərbaycan ərazisinin daxilində yerləşdiyini bildirib.




AZƏRTAC xəbər verir ki, proqram zamanı ermənilərin Bərdə şəhərində dinc əhaliyə qarşı törətdiyi cinayət nəticəsində 21 mülki şəxsin həlak olduğu, onlarla insanın yaralandığı da diqqətə çatdırılıb.

Sonra sualları cavablandıran səfir Mahir Əliyev müharibənin Azərbaycan ərazisində getdiyini deyib, ermənilərin cəbhə bölgəsindən çox uzaqda yerləşən yaşayış məntəqələrimizi, dinc əhalini raket atəşinə tutduğunu bildirib. O, müharibənin işğal altındakı Azərbaycan torpaqlarının azad olunması uğrunda aparıldığını vurğulayıb. Səfir BMT Təhlükəsizlik Şurasının erməni silahlı qüvvələrinin işğal olunmuş Azərbaycan ərazilərindən qeyd-şərtsiz çıxarılması barədə qətnamələrini də xatırladıb.

Səfir erməni cinayətkarların işğal altındakı ərazilərdə törətdikləri vəhşiliklərdən danışıb, Dağlıq Qarabağdan və ətraf yeddi rayondan bir milyona yaxın azərbaycanlının məcburi köçkün düşdüyünü bildirib, dünya ictimaiyyətinin bu barədə susqunluğunu qınayıb.

Minsk qrupunun münaqişənin həllində rolu barədə suala səfir 26 ildən artıq bir müddət ərzində Minsk qrupunun problemin həlli ilə əlaqədar dəfələrlə təkliflər irəli sürdüyünü, illərlə danışıqların getdiyini, lakin qrupun fəaliyyəti müstəvisində heç bir nəticə əldə olunmadığını qeyd edib. Burada BMT TŞ-nin məlum qətnamələrini bir daha xatırladan diplomat problemə ikili standartlar aspektindən yanaşmanın da öz sözünü dediyini bildirib.

Aparıcının “Siz Minsk qrupunun həmsədrlərini Ermənistana yardım göstərməkdəmi ittiham edirsiniz?” sualına cavabında Mahir Əliyev həmsədrləri ittiham etmədiyini, onların kimə yardım etdiklərini özlərinin yaxşı bildiklərini deyib. O, problemin həlli istiqamətində fəaliyyətin həddindən artıq uzun bir zaman - 30 ilə yaxın vaxt aparmasını qeyd edərək, bir daha öz doğma yurdlarından didərgin düşmüş insanları xatırladıb. Diplomat münaqişənin alovlandığı ilk vaxtlarda qucaqlarda öz evlərindən qaçan körpələrin indi tank üstündə doğma torpaqlarını azad etmək üçün geri qayıtdıqlarını vurğulayıb.

❖ ❖ ❖




“The New-York Times” nəşrində erməni silahlı qüvvələrinin Azərbaycanı növbəti dəfə raket atəşinə tutması, erməni təcavüzü və Azərbaycanın işğal edilmiş ərazilərində hazırda davam edən hərbi əməliyyatlar barədə məqalə dərc edilib. Qəzetin Ermənistan tərəfindən raket atəşinə məruz qalmış bir qrup jurnalisti Azərbaycanın dinc əhalisinə qarşı hücumu təsvir edib.

AZƏRTAC xəbər verir ki, jurnalistlər Bərdə şəhərinin əsas küçəsində maşınla getdikləri zaman şəhərə erməni raketləri düşməyə başlayıb. Məqalənin müəllifi jurnalist Karlotta Qell yazır ki, birinci partlayış çox gurultulu olub. Jurnalistlər maşından tullanaraq yaxınlıqdakı divara qısılıblar.

Karlotta Qell yazır: “Azərbaycan Ermənistanla müharibə vəziyyətindədir, lakin cəbhə xətti Bərdədən 20 mil uzaqdadır. Həmin ana qədər bu rayonda sakitlik idi”. Reportyor daha sonra raket zərbəsinin dəhşətli nəticələrini və yaralı dinc sakinlərin yaxınlıqdakı özəl poliklinikanın zirzəmisinə çatdırılmasını təsvir edir.

1988-ci ildə başlanmış silahlı münaqişə nəticəsində Azərbaycan ərazisinin xeyli hissəsi işğal edilib, bir milyona yaxın azərbaycanlı öz evlərindən qovulub. Cəbhə xəttinin yaxınlığında yerləşən bir sıra yaşayış məntəqələri demək olar ki, hər gün raket zərbələrinə məruz qalır. Cəbhə xəttindən xeyli uzaqda yerləşən Bərdəyə hücum münaqişənin eskalasiyasının nəticəsidir.

Qell Bərdənin mərkəzində yaranmış kədərli mənzərəni belə təsvir edir: “Dağıdılmış maşınlar qeyri-standart istiqamətdə dayanmışdı. İki maşında olan cəsədlərin üzərinə adyal örtülmüşdü. Digər avtomobilin yanında bir cüt ayaqqabı görünürdü. Yola tökülmüş qan ətrafı qara rəngə boyamışdı. Havadan partladıcı maddə iyi gəlirdi”.

Bərdə şəhərinin mərkəzinə raket zərbəsi nəticəsində 21 nəfər həlak olub, daha 70 nəfər yaralanıb. Qell yazır ki, hakimiyyət orqanlarının məlumatına görə, kasetli bombalar yayan raketlər “Smerç” tipli yaylım atəşi sistemindən atılıb. Açıq sahələrdə ordulara qarşı istifadə edilmək üçün nəzərdə tutulan kasetli bombalar yaşayış rayonlarında mülki əhali üçün çox təhlükəlidir. Ona görə də dünyanın əksər ölkələrində bu silahdan istifadə edilməsi qadağan olunub.

Müəllif daha sonra yazır ki, həmin gün səhər bir qrup jurnalist Bərdənin yaxınlığındakı Qarayusifli kəndinə baş çəkib. Burada yerli əhali raket atəşi nəticəsində həlak olanları dəfn edirdi. Qarayusifli kəndinin dörd sakini, o cümlədən 7 yaşlı qız həlak olub, 10-dan çox insan yaralanıb.

❖ ❖ ❖




Türkiyə kütləvi informasiya vasitələri (KİV) Ermənistan ordusunun Azərbaycanın dinc əhalisinə qarşı həyata keçirdiyi hücumlara dair məlumatları geniş şəkildə yaymaqdadır.

AZƏRTAC xəbər verir ki, Türkiyə KİV-i, həmçinin Azərbaycan Prezidenti İlham Əliyev gündəlik fəaliyyətinə, dövlətimizin başçısının müsahibələrində və xalqa müraciətlərində, eləcə də özünün rəsmi “Twitter” hesabında paylaşdığı məlumatlara və fikirlərə böyük yer ayırır.

Azərbaycan Müdafiə Nazirliyinin rəsmi məlumatlarına, eləcə də Ermənistan tərəfinin azərbaycanlı mülki əhaliyə hücumlarına geniş yer verilir. KİV yazır ki, Ermənistan ordusu Azərbaycanın dinc əhalisinə qarşı qətliamlar törədir.

Bildirilir ki, təcavüzkar Ermənistanın Azərbaycanın böyük şəhərləri də daxil olmaqla, mülki yaşayış məntəqələrini atəşə tutması, dinc əhalinin hədəfə alınması düşmənin riyakarlığının və amansızlığının göstəricisidir.

Mövzu ilə bağlı verilən analitik yazılarda və telekanallardakı ekspert müzakirələrində vurğulanır ki, beynəlxalq birliyin Ermənistanın müharibə cinayətlərinə səssiz qalması dünyada haqqa və ədalətə inamı heçə endirir. Hazırkı dövrdə heç kəs iddia edə bilməz ki, baş verənlərdən məlumatsızdır. Azərbaycandakı diplomatik korpusun rəhbərləri və təmsilçiləri Gəncədə və Bərdədə ballistik raket hücumlarının qanlı izlərini öz gözləri ilə görüblər.

❖ ❖ ❖




Çin Mərkəzi Televiziyasının ingilis dilində yayımlanan CGTN (China Global Television Network) kanalının internet səhifəsində Ermənistanın oktyabrın 28-də Bərdəyə raket hücumu nəticəsində mülki şəxslərin həlak olması və yaralanması barədə məqalə yerləşdirilib.

AZƏRTAC xəbər verir ki, məqalədə Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevə istinadla Ermənistan silahlı qüvvələrinin Bərdəyə “Smerç” qurğusundan raketlər atdığı bildirilib. Qeyd olunub ki, Dağlıq Qarabağdan kənarda yerləşən Bərdəyə hücum nəticəsində 21 nəfər ölüb, onlarca dinc sakin yaralanıb. Bu, son toqquşmaların başladığı bir aylıq dövrdə mülki insanlar arasında ən çox ölümlə nəticələnən hücumdur. Materialda ermənilərin oktyabrın 27-də Bərdəyə əvvəlki raket hücumu nəticəsində isə 1-i iki yaşlı uşaq daxil olmaqla, 4 nəfərin həlak olduğu xatırladılıb.

Yazıda Dağlıq Qarabağ münaqişəsinin tarixi barədə də məlumat verilib. Qeyd olunub ki, Ermənistanın dəstəklədiyi separatçılar 1990-cı illərdə 30 min nəfərin ölümü ilə nəticələnən müharibə zamanı Dağlıq Qarabağa nəzarəti ələ alıblar. Onların elan etdiyi “müstəqilliyi” Ermənistan da daxil olmaqla, heç bir ölkə tanımayıb. Dağlıq Qarabağ beynəlxalq hüquqa əsasən Azərbaycanın ərazisidir. Sentyabrın 27-dən başlayan döyüşlərin gedişində Azərbaycan 1990-cı illərdə itirdiyi əraziləri azad edir. Ermənistan bu döyüşlərdəki itkilərini etiraf edib və könüllüləri cəbhədə döyüşməyə çağırıb.

# Beynəlxalq ictimaiyyət Azərbaycanın ədalətli mübarizəsini müdafiə edir



"Ermənistan Azərbaycan torpaqlarını işğal edib. Azərbaycanlı qardaşlarımızın həmin torpaqlardan qovulmasından 30 il keçib. Minsk qrupu bu məsələni həll etmədi. Azərbaycan öz vətəndaşlarının hüquqlarını qorumalıdır. Ermənilər hücum etdi, azərbaycanlılar özlərini müdafiə edirlər və bu proses davam edir".

AZƏRTAC xəbər verir ki, bu fikirləri Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Ədalət və İnkişaf Partiyasının (AKP) toplantısında bildirib.

Rusiya Prezidenti Vladimir Putinlə telefon söhbətinə toxunan Rəcəb Tayyib Ərdoğan danışıq zamanı Qarabağ probleminin həlli yollarının müzakirə olunduğunu, nümayəndə heyətlərinin görüşünün təşkilinin vacibliyini vurğulandığını bildirib. O deyib: "Bizi Suriyadan Azərbaycana xarici qüvvələrin gətirilməsində ittiham edirlər. Lakin 2000-ə yaxın PKK/YPG terrorçusu Ermənistan tərəfdən 600 dollar maaş qarşılığında Qarabağda döyüşür. Rusiya Prezidenti bundan xəbərsiz olduğunu bildirdi. Bunun üzərində dayanmaq, buna uyğun addımlar atmaq lazımdır".

Türkiyə dövlətinin başçısı, həmçinin vurğulayıb: "Azərbaycanlı qardaşlarım itirdikləri torpaqların böyük hissəsini geri qaytarıblar. İnanıram ki, yaxın zamanda bütün ərazilərini azad edəcəklər. İndiyədək qardaşlarımızın yanlarında olduq, bundan sonra da olacağıq".

❖ ❖ ❖



"Türkiyə indiyədək olduğu kimi, bundan sonra da tarixi həqiqətlərə və beynəlxalq hüquqa əsasən haqlı mübarizəsində və torpaqlarının müdafiəsində Azərbaycanın yanında olmağa davam edəcək".

AZƏRTAC xəbər verir ki, bu fikirləri Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şentop bildirib.

"Biz bu coğrafiyada hər zaman davamlı sülhün tərəfdarı olmuşuq", - deyən Sədr bildirib: "Biz ədalətə və hüquqa olan inamımızla Şərqi Aralıq dənizində yaranan gərginliyin də diplomatik yollarla həllinin tərəfdarıyıq. Yaşadığımız coğrafiyada davamlı sülhə nail olmaq üçün qətiyyətli mövqeyimizi qoruyacağıq".

❖ ❖ ❖



Son günlərdə bəzi ermənipərəst KİV-də Rusiya Dövlət Dumasının MDB işləri, Avrasiya inteqrasiyası və həmvətənlərlə əlaqələr üzrə komitəsi sədrinin birinci müavini Viktor Vodolatskinin "RİA Novosti"yə verdiyi müsahibə təhrif olunub. Müsahibəsində o, Azərbaycan ərazilərinin işğaldan azad edilməsi üzrə hərbi əməliyyatlar aparan Azərbaycan Respublikası Silahlı Qüvvələrinin sıralarında xarici muzdluların mövcudluğu barədə məlumatla əlaqədar mövqeyini bildirib.

AZƏRTAC Azərbaycanın Rusiyadakı səfirliyinə istinadla xəbər verir ki, bununla əlaqədar Viktor Vodolatski onun fikirlərini təhrif edən KİV-ləri yalan və böhtanda təqsirləndirib. O, adından yayılan fikirləri qəti şəkildə təkzib edir.

Rusiya deputatı deyib: "Mənim timsalımda biz MDB məkanında və dünyada aparılan hibrid və çirkli müharibənin şahidi oluruq. Müsahibə vermədiyim "İnfoteka24" vebsaytının mənim adımdan həqiqətə uyğun olmayan məlumat verməsi mənim üçün şok oldu. Mən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə bir neçə dəfə görüşmüşəm. Onun Rusiyaya münasibətini, bizim prezidentimiz Vladimir Putinin cənab Əliyevə münasibətini bilirəm. Həmçinin mənim Rostov vilayətindən millət vəkili olduğumu nəzərə alaraq, mənim üçün, sovet əsgərinin qəhrəmanlığına səmimi qəlbdən hörmət edən bir insan üçün böyük simvol mövcuddur - bu da dostluğumuza ucaldılan abidə - iki Azərbaycan diviziyasının həlak olduğu "Sambek yüksəklikləri"dir. Azərbaycanın sabiq Prezidenti Heydər Əliyev burada bir neçə onilliklər əvvəl inşa edilmiş muzeyin ideyasının müəllifidir. Qubernator Vasili Qolubevin Prezident İlham Əliyevlə görüşündən sonra kompleks genişləndirildi və Vətən müharibəsinin xatirəsinə həsr edilmiş xalq muzeyinə çevrildi. Burada o illərdə həlak olmuş azərbaycanlıların soyadları həkk olunub. Vaxtilə əcdadları doğma torpağımı müdafiə edən azərbaycanlıların ünvanına bu gün qeyri-korrekt sözlər necə işlətmək olar? Buna görə mən hesab edirəm ki, bu küfrdür və KİV bu cür məsələlərlə məşğul olmamalıdırlar".

Viktor Vodolatski əlavə edib ki, hazırda yuxarıda qeyd edilən sayt tərəfindən təkzibin verilməsi ilə əlaqədar araşdırma aparılır. O qeyd edib ki, bu müsahibə Dövlət Dumasının deputatlarının da hibrid müharibəyə cəlb edilməsi cəhdidir, halbuki Dövlət Duması, öz növbəsində, dünyada sülhün bərqərar olması üçün maksimal olaraq cəhd göstərir. "Feyk xəbərlərin əsas məqsədi adi vətəndaşların etibarını öldürməkdən ibarətdir. Yəni yanlış məlumatı yayanlar işimizə xələl gətirmək istəyirlər, guya Rusiya deputatlarının sözləri ilə kimisə təhqir edirlər. Hazırda söhbət Azərbaycandan gedir. Buna görə mən bu məsələyə reaksiya verdiyimə görə Azərbaycanın Rusiyadakı səfirinə təşəkkür edirəm, biz bu məsələyə aydınlıq gətirməyi qərara aldıq. KİV-in bu cür nümayəndələri hansısa reytinqə görə bizim münasibətlərin atmosferini dəyişə bilməzlər. Bu cür hərəkətlərlə onlar özlərini KİV-in çirkin və vicdansız nümayəndələri kimi təqdim edirlər. Rusiyada heç kim, o cümlədən bizim Prezidentimiz insanların bir-birinə qarşı silah qaldırmasını istəmir. Lakin kimsə çox güman ki, bunu istəyir və vəziyyəti silkələyir. Bu feyk xəbərlərin yüksək səviyyəyə çatdığını gördükdə, onları ciddi şəkildə cəzalandırmalıyıq. Mən bu saytın ən azı bloklanması üçün müvafiq strukturlara artıq müraciət göndərmişəm", - deyə V.Vodolatski vurğulayıb.

O əlavə edib ki, pandemiya başa çatdıqdan sonra həmkarları ilə birlikdə Bakıya səfər etməyi planlaşdırır.

❖ ❖ ❖




"10 aylıq Narın, 1 yaşlı Mədinə, 8 yaşlı Aysu, 9 yaşlı Viktoriya, 13 yaşlı Şəhriyar, 13 yaşlı Artur, 14 yaşlı Fərid, 15 yaşlı Fidan, 15 yaşlı Nigar, 16 yaşlı Orxan. Bunlar, Dağlıq Qarabağ münaqişəsi zonasında və ondan kənarda bir ay davam edən döyüşlər zamanı öldürülən 10 uşağın adları və yaşlarıdır. 11 yaşlı oğlan və 12 yaşlı qızın adları hələlik açıqlanmayıb".

AZƏRTAC xəbər verir ki, bu barədə UNICEF-in Dağlıq Qarabağ və ətrafında gedən bir aylıq döyüşlərə dair yaydığı bəyanatda bildirilib.

Bəyanatda qeyd edilib ki, 130 mindən çox insan evlərindən didərgin düşüb, 76 məktəb və uşaq bağçasına ziyan dəyib, bir doğum evi top atəşinə tutulub. Mülki bölgələrə gündəlik endirilən raket hücumlarının psixoloji təsirinə məruz qalan saysız-hesabsız uşaqlar qorxu keçirirlər.

Riayət olunmayan üç atəşkəs anlaşması fonunda davam edən dörd həftəlik döyüşlərin uşaqlar üçün acı nəticəsidir. UNICEF uşaqların bundan sonra da həlak olmaması üçün döyüşlərin dərhal və tam dayandırılması üçün bir daha müraciət edir.

❖ ❖ ❖



"Hər kəs "Le Figaro"nun məqaləsindəki şərhləri qiymətləndirə bilər. Məqaləyə şərh təhqir və təhdid mesajlarının axınına səbəb olub.

Fransada müəllimin öldürülməsindən sonra ölkə Prezidenti ictimaiyyəti ifadə və düşüncə azadlığını qorumağa çağırdı. Təkrar edirəm ki, BMT Təhlükəsizlik Şurasının qətnamələrini dəstəkləməyə davam edəcəyəm. Radikallara Fransada yer yoxdur!"

AZƏRTAC xəbər verir ki, bu fikirləri Fransa-Azərbaycan parlamentlərarası dostluq qrupunun vitse-prezidenti Jerom Lamber deyib.

O bildirib ki, heç bir karikatura nəşr etməyib. Ancaq etsəydi, bəlkə yenə də belə mənfur şərhlər və təhdidlər alardı. O, deyib ki, sadəcə olaraq, "Le Figaro"da Azərbaycan Prezidenti ilə müsahibəyə dair məqaləyə fikir bildirib, elə cinayəti də budur - fikrini azad söyləmək.

"Bu məqaləyə şərhim hələ də hesabımdadır. Fransanın bu münaqişə ilə bağlı 30 illik rəsmi mövqeyini göstərmək istəyirdim. Fransa özünün qəbul etdiyi BMT qətnamələrini dəstəkləyir.

Başa düşdüm ki, bu gün Fransada Ermənistanın mövqeyini təsdiqləmədən Azərbaycanla Ermənistan arasındakı vəziyyəti müzakirə etmək mümkün deyil. Əks halda, belə radikal reaksiyalarla üzləşəcəksən. Bəzi ermənilərin TF1-in qərargahı qarşısında Fransa tərəfindən Azərbaycanda hazırlanan yeganə reportaja etiraz olaraq nümayiş isə ölkəmizdəki radikallığın dərəcəsini göstərir!", - deyə J.Lamber bildirib.

O vurğulayıb ki, dünyada sülh uğrunda mübarizəsini davam etdirəcək.

❖ ❖ ❖



"Ermənistan ordusu uzun illərdir ki, işğal altında saxladığı Dağlıq Qarabağı və Azərbaycanın digər ərazilərini dərhal və qeyd-şərtsiz olaraq tərk etməlidir".

Bu sözləri AZƏRTAC-ın Yaponiyadakı xüsusi müxbirinə müsahibəsində Tokio Universitetinin professoru Akira Matsunaqa deyib. Ermənistan ilə Azərbaycan arasında artıq bir aydır davam edən qızğın döyüşlərə münasibət bildirən yapon professor qeyd edib ki, münaqişənin gərginləşməsinə görə bütün məsuliyyət Ermənistanın siyasi-hərbi rəhbərliyinin üzərinə düşür. Məhz Ermənistan ordusu sentyabrın 27-də atəşkəs barədə razılaşmanı pozaraq Azərbaycan ərazisində təxribatlar törədib. Müharibənin gedişində Rusiya və ABŞ-ın vasitəçiliyə ilə əldə edilən üç humanitar atəşkəsin pozulmasının günahkarı da Ermənistandır. Hər üç halda Ermənistan raketlərdən istifadə edərək Azərbaycanın cəbhə bölgəsindən uzaqda yerləşən şəhərlərinə hücum edib. Professor deyib: "Düşünürəm ki, beynəlxalq ictimaiyyət Ermənistanın uşaqların və digər mülki şəxslərin ölümü ilə nəticələnən bu vəhşi, qeyri-insani hücumlarını pisləməli və bunun dayandırılmasına çalışmalıdır".

A.Matsunaqa vurğulayıb ki, Ermənistan dövləti artıq 30 ildir BMT Təhlükəsizlik Şurasını müvafiq qətnamələrinə baxmayaraq, Azərbaycanın Dağlıq Qarabağ regionunu və ətraf əraziləri işğal altında saxlayır. Ermənistan təcili olaraq, həmçinin heç bir şərt irəli sürmədən bu torpaqları tərk etməlidir.

Yaponiya hökumətinin münaqişəyə münasibətini bildirən yapon professor qeyd edib ki, Yaponiya Dağlıq Qarabağ münaqişəsinin BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə uyğun olaraq həllini və Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir.

A.Matsunaqa Ermənistanın Avropanın enerji təminatında mühüm rol oynayan Bakı Tbilisi-Ceyhan neft və Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinə hücum cəhdinə də münasibət bildirib. Qeyd edilib ki, bu hücum beynəlxalq hüququn pozulmasıdır və Ermənistan dövlətinin işğalçı siyasətinin mahiyyətini təsdiq edir. Beynəlxalq ictimaiyyət Ermənistanın bu hərəkətlərinin qarşısını almaq üçün ona təzyiqi artırmalıdır. Professor bildirib: "Yaponiyanın INPEX və "Itochu" şirkətlərinin də qatıldığı Xəzər dənizinin neft ehtiyatlarının mənimsənilməsi layihələrində iştirakını nəzərə alaraq deyə bilərik ki, bu hücumlar həm də Yaponiyaya qarşı yönəlib və bunu Ermənistana bağışlamaq olmaz".

Ermənistanın müharibədə uduzmasının qarşısını almaq üçün müxtəlif çirkin vasitələrə əl atdığını vurğulayan professor bu məqsədlə onun münaqişəni xristian və islam dünyası arasında qarşıdurma kimi təqdim etmək cəhdinin tamamilə yolverilməz olduğunu bildirib. Qeyd edib ki, Ermənistan bununla başqasının torpaqlarını işğal etmək kimi addımına haqq qazandırmaq istəyir və buna qəti şəkildə yol vermək olmaz. Hamı yaxşı görür ki, müharibə Azərbaycan ərazisində gedir və Azərbaycan Ordusu Ermənistan ərazisinə müdaxilə etmir. Münaqişənin gərginləşməsinin məsuliyyəti isə məhz Ermənistanın üzərinə düşür.

Ötən əsrin 90-cı illərində informasiyanın ötürülməsi çətinliyi ilə qarşılaşan Azərbaycanın Ermənistanın işğalçı siyasətini dünyaya çatdıra bilmədiyini xatırladan A.Matsunaqa bildirib ki, hazırda mövcud olan internet və sosial şəbəkələr həqiqətin dünyaya çatdırılmasına böyük imkan yaradıb. Azərbaycan məhz bu vasitələrdən istifadə edərək münaqişə barədə həqiqətləri bütün dünyaya çatdırmalıdır.

❖ ❖ ❖




Bakı Dağ Yəhudiləri Dini İcmasının rəhbəri Melih Yevdayevin Los-Ancelesdə erməni lobbisinin İsraili nasist Almaniyası ilə eyniləşdirməsinə dair məqaləsi ABŞ-ın ən böyük yəhudi qəzetlərindən olan "Jewish Journal" qəzetində dərc edilib.

Azərbaycan Respublikasının Los-Ancelesdəki baş konsulluğundan AZƏRTAC-a bildiriblər ki, məqalədə İsrailin Azərbaycana dəstəyinə etiraz olaraq Los-Ancelesdəki erməni lobbisi ötən həftə İsrailin baş konsulluğu qarşısında mitinq keçirdiyi qeyd edilib. Həmin mitinqdə İsrailə "Sizin nasist Almaniyasından heç bir fərqiniz yoxdur" şüarı ünvanlanıb.

M.Yevdayev Ermənistanda antisemitizmin baş alıb getdiyini, nüfuzlu "Anti-Defamation League" yəhudi təşkilatının araşdırmasına əsasən, onun Avropada ikinci, dünyada isə Yaxın Şərq və Şimali Afrikadan sonra üçüncü ən antisemit ölkə olduğunu qeyd edib. Müəllif, həmçinin Ermənistanın İkinci Dünya müharibəsi illərində nasist Almaniyası ilə əməkdaşlıq etmiş erməni general Qaregin Njdeni milli qəhrəman səviyyəsinə qaldırdığını, ona Yerevanda heykəl ucaltdığını və nasistlərə xidmət etmiş digər erməni general Drastamat Kanayanın adının da dövlət səviyyəsində əbədiləşdirildiyini bildirir. Los-Ancelesdəki aksiyanı keçirən Erməni Gənclər Federasiyası (Armenian Youth Federation) təşkilatının da vaxtilə məhz Q.Njde tərəfindən yaradıldığını diqqətə çatdırır.

M.Yevdayev, eyni zamanda, bir neçə gün əvvəl Ermənistanın Almaniyanın "Almaniya üçün Alternativ" Partiyasının neonasist üzvlərini Azərbaycanın işğal olunmuş ərazilərinə dəvət etdiyini vurğulayır.

İcma sədri Ermənistanın bütün bu qanunsuz və insanlıqdan kənar hərəkətlərinin fonunda yəhudi, müsəlman və xristianların çiyin-çiyinə birgə xidmət göstərdikləri Azərbaycan Silahlı Qüvvələrinin mülki əhalimizi qorumaq və Ermənistan tərəfindən işğal olunmuş torpaqlarımızı azad etmək yolunda inamla irəlilədiyini bildirir.

ABŞ-ın ən böyük yəhudi təşkilatlarından olan və 400 min insanı özündə birləşdirən Simon Vizental Mərkəzi Melih Yevdayevin məqaləsini öz "Twitter" hesabından paylaşaraq, radikal erməni lobbisinin İsraili nasist Almaniyası ilə eyniləşdirmək cəhdini iyrənc adlandırıb, Azərbaycan əhalisinin əksəriyyətinin müsəlman olmasına baxmayaraq, ölkə ərazisində xristianların və yəhudilərin hüquqlarının qorunduğunu, həmçinin İsraillə yaxşı münasibətlər qurulduğunu qeyd edib.

❖ ❖ ❖


STATEMENT OF THE INDONESIAN ULEMA COUNCIL
ON THE ACTS OF AGGRESSION OF ARMENIA AGAINST AZERBAIJAN

İndoneziyanın bütün müsəlman dini icmalarını özündə birləşdirən və bu ölkənin Vitse-prezidenti Maruf Aminin rəhbərlik etdiyi İndoneziya Üləmalar Məclisi Ermənistanın Azərbaycana qarşı təcavüzü ilə bağlı bəyanat yayıb.

AZƏRTAC xəbər verir ki, Ermənistanın Azərbaycan torpaqlarının işğalı və sentyabrın 27-də ölkəmizə qarşı başladığı yeni təcavüz aktı ilə bağlı İndoneziya Üləmalar Məclisinin yaydığı bəyanat təşkilatın sədr müavini Muhyiddin Cunaidi tərəfindən imzalanıb.

Bəyanatda atəşkəsin Ermənistan tərəfindən pozulmasından sonra mülki əhali və hərbçilər arasında itkilərin olduğu, habelə yaşayış binalarına böyük ziyan dəydiyi vurğulanıb, mülki əhalinin atəşə tutulmasına qəti etiraz bildirilib.

Sənəddə Ermənistanın beynəlxalq hüquq və beynəlxalq humanitar hüquq normalarına, habelə Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrini yerinə yetirməsinə qəti şəkildə çağırış edilib, Ermənistanın Azərbaycanın işğal altındakı bütün ərazilərindən dərhal və qeyd-şərtsiz çıxması təkidlə tələb olunub. Həmçinin tərəflərə BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrinə, habelə digər müvafiq beynəlxalq sazişlərə uyğun olaraq münaqişənin dayandırılması və məsələnin həllinin sülh yolu ilə tapılması barədə çağırış edilib.

Qeyd edilib ki, Ermənistanın Dağlıq Qarabağa qarşı əsassız iddiaları və Azərbaycan torpaqlarının işğalı faktı son 30 ildə insan haqlarının kobud şəkildə pozulması, eyni zamanda, günahsız insanların ölümü ilə nəticələnib. Vurğulanıb ki, bu məsələ ən qısa zamanda həll edilərək gələcəkdə hər hansı münaqişənin qarşısı alınmalı və sülh mühiti yaradılmalıdır.

Bəyanatda regional ölkələr vahid mövqe tutmağa, işğal altındakı ərazilərdən Ermənistanın qeyd-şərtsiz çıxmasını təmin etməyə dəvət olunub.

Təşkilatın Ermənistan tərəfindən Azərbaycana qarşı hərbi təcavüzün qarşısının alınması, mülki əhalinin və təmas xəttindən kənardakı bölgələrin təhlükəsizliyini təmin etmək məqsədilə özünümüdafiə hüququna və beynəlxalq humanitar hüquqa əsasən, Azərbaycan Ordusunun əks-hücum tədbirləri də daxil olmaqla, bütün addımlarını dəstəklədiyi qeyd edilib.

İndoneziya Üləmalar Məclisi İndoneziya hökumətinin ATƏT-in Minsk qrupu çərçivəsində hər iki tərəfə danışıqları davam etdirmələri çağırışı barədə diplomatik səylərinə hörmət etdiyini və tam şəkildə dəstəklədiyini bildirib.

Sonda Muhyiddin Cunaidi İndoneziya Üləmalar Məclisi adından və şəxsən öz adından şəhid ailələrinə, onların yaxınlarına və bütün Azərbaycan xalqına başsağlığı verib, şəhidlərə Allahdan rəhmət diləyib.

❖ ❖ ❖




"Sərhədsiz Reportyorlar" Fransanın TF1 televiziyasının jurnalistinin Dağlıq Qarabağ münaqişəsi haqqında hazırladığı reportajın yayımından sonra ona qarşı internet üzərindən sərt hücumların olduğunu, yalnız işini görən bir peşəkara qarşı kobud nifrət dolu mesajlarla ittiham olunduğunu bəyan edib.

AZƏRTAC xəbər verir ki, oktyabrın 22-də TF1 kanalında "Saat 20" verilişində Azərbaycanın cəbhə xəttindən, Dağlıq Qarabağ regionunda döyüşlərin yenidən başlanmasından bəhs edən reportajın yayımından sonra jurnalist və böyük repartyor Lizron Budul Fransanın erməni icması tərəfindən "Facebook" və "Twitter" sosial şəbəkələri üzərindən güclü nifrət dolu saysız mesajların hədəfinə çevrilib və onu "genosid törədənlərin fahişəsi" kimi qələmə veriblər. Eyni zamanda jurnalistin telefon nömrəsi əldə edildikdən sonra "WhatsApp" üzərindən də təzyiqə məruz qaldığı deyilir. Televiziya kanalı da, həmçinin davamlı olaraq, sosial şəbəkələr, elektron poçt ünvanı və telefon zəngləri ilə narahat edilib.

Oktyabrın əvvəlində digər iki fransız jurnalist də Dağlıq Qarabağ münaqişəsi haqqında dərc etdikləri məqalələrdən sonra internet üzərindən erməni icmasının təhdidləri ilə üzləşiblər.

"Sərhədsiz Reportyorlar"ın Avropa İttifaqı və Balkan bürosunun rəhbəri Pavol Szalai Lizron Budul və TF1-ə qarşı olan təzyiqləri qətiyyətlə pisləyir. Bildirilir ki, münaqişə və cəbhə xəttindən yerindəcə reportaj hazırlamış hər hansı bir jurnalistin və medianın bununla bağlı narahat edilməsi qəbuledilməzdir. "Bundan başqa, Fransa Erməniləri Təşkilatlarının Koordinasiyası Şurasının həmsədri Frank Papazyanı mətbuat azadlığına qarşı işlənmiş kobud hücuma qarşı eyhamlı danışıqları pisləməyə çağırırıq", - deyə qeyd edilir.

Belə ki, "Facebook" vasitəsilə yayımlanan reportaj haqqında "dezinformasiyaya bənzəyir" fikri bildirilib. Digər şərhlərdə isə belə mesajlarla qarşılaşırıq: "Ola bilər ki, TF1-in bir neçə işçisinin başı kəsildikdən sonra daha yaxşı və aydın düşünər". Ertəsi gün reportajın yayımından sonra Fransada yaşayan erməni icması münaqişədə inad göstərən tərəf kimi kanalın binası qarşısında etiraz aksiyası keçiriblər.

Xatırladaq ki, TF1 bir neçə gün öncə erməni cəbhəsindən iki ölkə arasındakı münaqişədən bəhs edən reportaj hazırlamışdı. Nəhayət, kanal gərginliyi azaltmaq üçün Lizron Budulun reportajını öz saytından silib.

❖ ❖ ❖



Dağlıq Qarabağda döyüş meydanında üstünlük əvvəlki kimi Azərbaycan tərəfində qalır. Prezident İlham Əliyev hər gün yeni-yeni ərazilərin və yaşayış məntəqələrinin götürüldüyünü bildirir - sonuncuların sayı artıq yüzü keçib. Belə ki, bazar günü axşam dövlət başçısı Azərbaycan Ordusunun Zəngilan, Cəbrayıl və Qubadlı rayonlarının bir neçə kəndini, eləcə də Qubadlı şəhərini işğaldan azad etdiyini bildirib.

AZƏRTAC xəbər verir ki, bu barədə Rusiyanın "Kommersant" qəzeti yazır. Məqalədə qeyd olunur ki, Azərbaycanın hərbi potensialının ciddi şəkildə yüksəlməsinin "birinci siqnalı" 2016-cı ilin Aprel döyüşləri oldu. "İkinci siqnal" 2020-ci ilin iyul ayında baş verən qarşıdurmalar idi.

"Arsenal Oteçestva" jurnalının baş redaktoru, ehtiyatda olan polkovnik Viktor Muraxovskiyə istinadla Azərbaycanın texniki üstünlüyə malik olduğu bildirilir. Azərbaycan Ordusunun inkişaf etmiş və kifayət qədər müasir artilleriyasının olduğu qeyd edilir.

Müəllif əminliklə yazır ki, Azərbaycanın azad etdiyi ərazilərin geri qaytarılması qeyri-mümkün görünür.

❖ ❖ ❖




Moldovanın TRIBUNA informasiya portalında Kişineu Effektiv Siyasət İnstitutunun direktorunun müavini, tarix elmləri doktoru, siyasi analitik Ruslan Şevçenkonun "Silah qaçaqmalçılığı - Qarabağın Ermənistan tərəfindən işğalının əsas səbəblərdən biridir" sərlövhəli məqaləsi dərc edilib.

AZƏRTAC xəbər verir ki, məqalədə Ermənistan hakimiyyətinin işğal olunmuş ərazilərdə silah qaçaqmalçılığı, silah alqı-satqısı və saxlanması ilə geniş məşğul olduğu qeyd olunub. (https://tribuna.md/ru/2020/10/26/ru)

"Hərbi əməliyyatlar başlamazdan əvvəl Ermənistan Müdafiə Nazirliyinin balansında yalnız rəsmi 150 tank qeydə alınmışdır, yəni cəmi bir neçə həftə ərzində Azərbaycan qoşunları tərəfindən məhv edilmiş tankların sayının yarısı. Bu əlavə tanklar haradan çıxdı və əsası bunlar harada saxlanılırdı, nəzərə alsaq ki, hər bir ölkə silahlarının "şəffaflığının" araşdırması üçün BMT mütəxəssislərinə "qapılarını açmalıdır?" - məqalədə belə deyilir.

Müəllif məqalədə ermənilərin silah arsenalında təkcə tankların deyil, daha bahalı silahların da olduğunu qeyd edir. Adi hesablamalar Ermənistanın bu tankları və digər texnikanı öz ərazisində saxlamadığını göstərir. Bu, o deməkdir ki, bütün bu silahlar Ermənistana gömrük qeydiyyatından yayınaraq qaçaqmalçılıq yolu ilə gətirilib və dərhal Dağlıq Qarabağa ötürülüb və orada saxlanılıb.

Həmçinin qeyd olunur ki, işğal olmuş ərazilərdə bu silahlar yalnız saxlanılmırdı, sonra "qara bazar"da satılırdı.

"Qaçaq silahların onların rəsmi qiymətlərindən bir neçə dəfə az olduğunu nəzərə alsaq, Ermənistan hakimiyyət orqanlarının bundan qazancının miqdarını yalnız təxmin etmək olar. Üstəlik, Ermənistan silah arsenalının bir çox hissəsini gizli "yardım" və ya müddətsiz geri qaytarılmayan kreditlər şəklində alır. Bu hərbi texnika əsasən terror təşkilatları və quldur birləşmələri tərəfindən alınırdı. Tam aydındır ki, bütün bunlar Ermənistan rəhbərliyinin xəbəri və ya birbaşa iştirakı olmadan baş verə bilməzdi",- deyə müəllif qeyd edir.

Müəllif, eyni zamanda, Qarabağda qaçaqmal silahının mənbəyini də göstərir. O vurğulayır ki, Azərbaycan hakimiyyətinin dəfələrlə bu sxemada erməni mənşəli böyük rus sahibkarlarının iştirak etdiyini beynəlxalq sanksiyalar altında olan tanınmış silah alverçilərinin olduğunu göstərib. Bundan əlavə, silahların mülki təyyarələrdə, qaçaqmalçılıq yolu ilə Ermənistana gətirildiyi bildirilir.

Sonda müəllif qeyd edir ki, işğal olunmuş ərazilər üzərində nəzarəti itirməklə Ermənistan həm terror təşkilatlarından böyük "qara" qazancını, həm də qanunsuz yolla əldə edilmiş silahları gizlətmək imkanını itirir. "Bu Ermənistan üçün, Qarabağı həqiqi sahibinə sülh yolu ilə qaytarmamaq, müharibəni davam etdirmək üçün daha bir səbəbdir",- deyə müəllif yazır.

❖ ❖ ❖




Fransanın "Charente Libre" qəzetində erməni lobbisinin fransız deputat Jerom Lamberi hədələməsi ilə bağlı məqalə dərc edilib.

AZƏRTAC xəbər verir ki, məqalədə ermənilərin fransız deputata yazdığı hədə və təhqirlər verilib.

Bildirilib ki, deputat Jerom Lamber Azərbaycan Prezidentinin "Le Figaro" qəzetində dərc olunmuş müsahibəni paylaşıb. Onun sonda yazdığı "Ermənistan bu münaqişəni alovlandırmaqda davam edir" şərhini ermənilər neytral hesab etməyib. Bundan sonra J. Lamber ermənilər tərəfindən yüzlərlə təhqir və hədə dolu mesaj alıb.

"Bir də ermənilər haqqında belə danışsanız, hərəkətlərinizə görə məsuliyyəti özünüz daşıyacaqsınız... başınıza bəla axtarmayın, çünki Ermənistanın Azadlığı uğrunda Gizli Erməni Ordusu və mafiya Fransadadır. Ona görə də ... (təhqir) cəhənnəmdə yanmağınızı arzulayıram", kimi yüzlərlə təhqir və hədə dolu mesajlar məqalədə dərc edilib.

Buna cavab olaraq J. Lamber bildirib ki, Azərbaycan haqqında xoş sözlər dediyi üçün ona qarşı aqressivlik göstərilib, təhqir və hədələr yazılıb. O qeyd edib ki, Azərbaycan regionun problemlərinin mərkəzində olduğu, beynəlxalq siyasətdə vacib rol oynadığı üçün bu ölkə ilə dostluq qrupuna qoşulub.

"Bunları mənə yazanlar ekstremistlərdir", - deyə J. Lamber vurğulayıb və söz azadlığı hüququ olduğunu diqqətə çatdırıb.

Fransız deputat təhlükəsizlik xidməti onun vəziyyətinə diqqət yetirdiyi üçün şikayət etmədiyini deyib. "Qorxmuram, bu, məni qorxutmaq üçündür. Bununla mənə fikrimi söyləməyə mane ola bilməzlər", - deyə o bildirib.

❖ ❖ ❖



"Azərbaycanın Bərdə şəhərinin dinc insanların ölümü ilə nəticələnən raket atəşinə məruz qalması barədə məlumatı böyük həyəcanla və təəssüflə qarşıladım".

AZƏRTAC xəbər verir ki, bunu Qazaxıstanın Azərbaycandakı səfiri Serjan Abdıkarimov bildirib.

Səfir qeyd edib ki, bu cür aktlar beynəlxalq humanitar hüququ və atəşkəs rejimi haqqında razılaşmaları kobudcasına pozur.

Xatırladaq ki, Ermənistan silahlı qüvvələrinin Bərdə şəhərini raket atəşinə tutması nəticəsində 21 dinc sakin həlak olub, 70-ə yaxın şəxs isə yaralanıb.

❖ ❖ ❖



"Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır. Danışıqlar prosesinin uzun müddətdir düyünə düşdüyünü nəzərə alsaq, Azərbaycanın hərəkətləri olduqca məntiqlidir. Aydındır ki, bu cür yanaşmalar müasir dünyada oxşar problemlərin həll edilməsində trendə çevriləcək".

Bu barədə AZƏRTAC-a açıqlamasında ukraynalı siyasi ekspert Petro Oleşşuk bildirib.

P.Oleşşuk hesab edir ki, Azərbaycanın ərazi bütövlüyü və suverenliyi ilə bağlı şübhə doğuran istənilən variant qəbuledilməzdir. Münaqişələr beynəlxalq hüququn prinsipləri əsasında həll edilməlidir. Ukrayna da oxşar problemi yaşayır.

Onun sözlərinə görə, Azərbaycanın təcrübəsi öyrəniləcək, lakin Ukraynanın ərazi bütövlüyü məsələsində hazırkı vəziyyət çətin ki, Azərbaycan təcrübəsini tam şəkildə tətbiq etməyə imkan versin.

❖ ❖ ❖




ABŞ Azərbaycanlıları Şəbəkəsi oktyabrın 28-də Bərdə şəhərinin raket atəşinə tutulması ilə bağlı məktub və qanunvericilərlə əlaqələndirmə kampaniyasına başlayıb. Şəbəkə tərəfindən hazırlanmış müraciətdə sentyabrın 21-dən Ermənistan Respublikasının silahlı qüvvələri beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il tarixli Cenevrə konvensiyaları və onların Əlavə protokollarını, BMT-nin Təhlükəsizlik Şurasının qərar və qətnamələrini, habelə elan edilmiş humanitar atəşkəs rejiminin tələblərini kobud şəkildə pozaraq Azərbaycanın dinc əhalisini qəsdən hədəfə almaqla döyüş əməliyyatlarının aparıldığı bölgəyə aidiyyəti olmayan Bərdə şəhərinə raket və ağır artilleriya zərbələri endirilməsindən danışılır. Qeyd olunur ki, "Smerç" tipli əməliyyat-taktiki təyinatlı 9M525 qəlpəli böyük dağıdıcı qüvvəyə malik ballistik "claster" tipli 2 ədəd raket zərbələrinin endirilməsi nəticəsində 5-i qadın olmaqla, 21 nəfər həlak olub, 8-i uşaq, 15-i qadın olmaqla, 70 şəxs isə müxtəlif dərəcəli bədən xəsarətləri alıb.

Məktub kampaniyasında iştirak edən ABŞ-ın Azərbaycan icmasının üzvləri minlərlə məktub göndərib, qanunvericilərə zənglər edib və sosial şəbəkələrdə fəallıq göstərərək Ermənistanın təcavüzü haqqında Amerika ictimaiyyətini məlumatlandırıb.

# Biz birlikdə güclüyük!

## Təhsil naziri Emin Əmrullayev xüsusi karantin rejimi dövründə tədrisin təşkili ilə bağlı sualları cavablandırıb

Oktyabrın 30-da Nazirlər Kabinetinin "Xüsusi karantin rejimi dövründə Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən təhsil müəssisələrinin fəaliyyətinin təşkilinə dair əlavə tədbirlər barədə" qərarı ilə bağlı brifinq keçirilib.





AZƏRTAC xəbər verir ki, brifinqdə çıxış edən Təhsil naziri Emin Əmrullayev Ermənistan silahlı qüvvələrinin ölkəmizə qarşı davam edən hərbi təcavüzünə toxunub, düşmən təcavüzü nəticəsində zərər dəymiş təhsil müəssisələri, həlak olan və yaralanan məktəblilər barədə danışıb. Təhsil naziri təəssüf hissi ilə bildirib ki, bu təcavüz nəticəsində son bir ayda 9 şagirdimiz həlak olub, 16 şagirdimiz yaralanıb, eləcə də 50-yə yaxın təhsil müəssisəsi müxtəlif dağıntılara məruz qalıb.

Emin Əmrullayev Nazirlər Kabinetinin müvafiq qərarına uyğun olaraq, noyabrın 2-dən bütün təhsil pillələri üzrə tədrisin distant qaydada təşkil olunacağını diqqətə çatdırıb və qeyd edib ki, distant təhsil mövcud durumdan çıxış yoludur. Distant təhsilin təminatı üçün müxtəlif onlayn platformaların fəaliyyətinə toxunan Təhsil naziri həmçinin "Microsoft Teams"in Azərbaycan dilinə tərcümə edilmiş versiyasının artıq hazır olduğunu diqqətə çatdırıb. Eyni zamanda həmin platformaların növbəti həftələrdə VPN olmadan işləyəcəyini bildirib.

